# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Avropa İttifaqı Azərbaycanın mövqeyini qəbul etməlidir"



7


№ 159 (7327)

4 sentyabr 2025-ci il.
Qiymәti 60 qәpik


## Azərbaycan Prezidenti İlham Əliyev Pekində İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradı izləyib



2

# Vaşinqtondan sonrakı Ermənistan



8

*Erməni siyasətçilər Trampın mühüm beynəlxalq prinsipi pozduğunu deyirlər*

## Ağ qan qırmızıqanı niyə "yeyir"?



15

## 6 milyondan çox uşaq məktəbdən kənarda qalacaq - XƏBƏRDARLIQ



16

## Nəqliyyatda elektrik enerjisinə keçid ekoloji vəziyyəti yaxşılaşdırır?



11

## Tez-tez ev dəyişmək: daha çox kim əziyyət çəkir...



6

## Yalqızam, yalqız...



6

# Azərbaycan Prezidenti İlham Əliyev Pekində İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradı izləyib

***Sentyabrın 3-də Çinin paytaxtı Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş parad keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paradı izləmək üçün Çinin paytaxtı Pekindəki Tiananmen Meydanına gəliblər.***

Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuan Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşılayıblar. Dünən Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanım Pen Liyuanın adından yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradda iştirak edən nümayəndə heyətlərinin başçılarının və xanımlarının şərəfinə ziyafət verilib və konsert proqramı təqdim olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.













# Danimarka nəşrində Cənubi Qafqazda sülh irəliləyişi barədə məqalə dərc olunub

Danimarkanın "POV International" nəşrində Azərbaycanın İsveç, Danimarka, Finlandiya və Norveçdəki səfiri Zaur Əhmədovun Cənubi Qafqazda sülh irəliləyişi barədə məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, diplomat 2025-ci il avqustun 8-də keçirilmiş Vaşinqton sammitinin tarixi əhəmiyyətini vurğulayıb. Həmin sammitdə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistan Respublikasının Baş nazirinin Vaşinqton görüşünə dair Birgə Bəyannaməni imzalayıblar.

Z.Əhmədovun sözlərinə görə, Vaşinqton görüşü yeni siyasi reallığa yol açıb. Tərəflər hərtərəfli sülh sazişinin imzalanmasına və ratifikasiyasına hazır olduqlarını təsdiq ediblər ki, bu da Ermənistanın konstitusiyasına dəyişiklik etməsini və ərazi iddialarından imtina etməsini tələb edəcək. Bundan əlavə, aktuallığını itirdiyi üçün ATƏT-in Minsk prosesinin bağlanması barədə qərar qəbul olunub.

Ən mühüm nəticələrdən biri nəqliyyat və kommunikasiya əlaqələrinin açılması, o cümlədən "Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu"nun (TRIPP) yaradılması barədə razılaşma olub. Marşrut Azərbaycanın əsas hissəsini Ermənistan ərazisi vasitəsilə Naxçıvanla birləşdirəcək. Orta Dəhlizin bir hissəsi olan bu layihə Qafqazı Türkiyə, Avropa və Avrasiya ilə birləşdirmək, ticarəti gücləndirmək və sərhədin hər iki tərəfində yeni iş yerləri yaratmaq potensialına malikdir.

Azərbaycan səfiri qeyd edib ki, "Maersk" də daxil olmaqla, Danimarka və Avropanın iri şirkətləri artıq yeni marşruta maraq göstərirlər. Onun sözlərinə görə, bu layihə həm də Danimarkanın Avropa İttifaqına sədrliyi və qarşıda gələn Kopenhagendə keçiriləcək "European Political Community" (Avropa Siyasi Birliyi) sammiti üçün xüsusi əhəmiyyət daşıyır. "Sabit və sülh şəraitində olan Cənubi Qafqaz şübhəsiz ki, Avropa İttifaqının şərq qonşuluğunu gücləndirəcək", - deyə diplomat yekunlaşdırıb.



# Çində ŞƏT sammiti: Yeni qlobal arxitektura və ÇOXQÜTBLÜ DÜNYA

***Çində Şanxay Əməkdaşlıq Təşkilatının yeni sammitinin başlaması bütün dünyanın diqqətini cəlb edib. Əslində, bütün dünya ictimaiyyətinin diqqətini cəlb etməyə də bilməzdi, çünki bunun məntiqi əsası var. Əgər bir müddət əvvəl yalnız ədalət prinsiplərinə əsaslanan yeni qlobal arxitekturanın formalaşdırılmasının zəruriliyi müzakirə edilirdisə, indi haqlı olaraq etiraf edilir ki, bu "memarlıq" artıq layihə deyil, bir reallıqdır. Özü də nəinki dünyanı dəyişdirəcək, həm də onu daha yaxşı və təhlükəsiz edəcək bir reallıq sayılır. Sözsüz ki, belə olan halda bütün bunları ümumi sözlər, şüarlar kimi qəbul etmək yanlışlıq olar. Çünki nəticəni sözün əsl mənasında, hər kəs hiss edəcək, özü də tezliklə...***





## Böyük siyasətin bir hissəsi...

Diqqətə çatdıraq ki, qlobalistlər baş verənlərdən həqiqətən çox qorxurlar. Qərblə qarşıdurmada olan üç ən qüdrətli ölkənin, daha dəqiq desək, Rusiya, Çin və Hindistanın liderləri arasında danışıqlar faktı buna səbəbdir. Artıq sammitin rəsmi hissəsində hər bir detala diqqət yetirilir, çünki bu da böyük siyasətin bir hissəsidir. Məsələn, Rusiya lideri ilə ilk görüşən məhz Si Cinpin olub. Əhval-ruhiyyə dərhal aydın şəkildə görünür. Dünyaya da təsir edən bu görüşün, münasibətin davam edəcəyi barədə proqnozlaşdırılmasıdır və bu da səbəbsiz deyil. Onu da qeyd edək ki, ŞƏT sammitindən sonra Rusiya liderinin Çinə rəsmi səfərinin olacağı barədə bildirilir və bunun özü də təsadüfi sayılmır. Yapon militaristlərinin məğlubiyyətinin və İkinci Dünya Müharibəsinin başa çatmasının 80 illiyinə həsr olunduğu bildirilsə də, heç bir şübhə yoxdur ki, Si Cinpinlə danışıqların gündəliyi daha geniş olacaq.

Diqqəti cəlb edən daha bir məqam Narendra Modinin son 7 ildə ilk dəfə çinə yollanması olub. "Biz dünyanın ən sıx iki ölkəsiyik və Qlobal Cənubun bir hissəsiyik... Dost, yaxşı qonşu olmaq həyati əhəmiyyət kəsb edir və Əjdaha ilə Fil birləşməlidir", deyə Si Cinpinnin məhz Modi ilə görüşdə dedikləri bütün dünyanın diqqətindən yayınan deyil. Sözsüz ki, Qərbin elə lap əvvəldən tədbirlər barədə düşünməsi də bu nöqteyi-nəzərdən anlaşılandır. Məsələn, xaricdəki təsirlərin qarşısını almaq üçün Hindistandan gələn mallara Trumpın 50% rüsum tətbiq etməsi indi daha çox diqqəti cəlb edir. Cənubi Asiyanın ən böyük ölkəsinin məhz Rusiya ilə əməkdaşlığa görə ikinci dərəcəli sanksiyalar altında olması da nəzərdən qaçan deyil. Amerika mediası yazır ki, Tramp hətta Hindistana səfər etməkdən belə imtina edib. Heç şübhəsiz ki, bütün bu faktların hər biri məntiqi nəticəyə gəlmək üçün yetərli hesab olunur və artıq hər şey göz qabağındadır, proqnozlaşdırıla biləndir.

## ŞƏT artıq çoxqütblü dünyanın mərkəzlərindən biridir

Görünən reallıq budur ki, artıq ŞƏT çoxqütblü dünyanın mərkəzlərindən biridir. Unutmaq lazım deyil və nəzərə alınmalıdır ki, Tianjin limanının ardınca gəmilər dünyanın 180 ölkəsinə yola düşürlər və bugünkü vəziyyət üçün bu, ideal yerdir. Onu da yaddan çıxarmaq lazım deyil ki, Şanxay Əməkdaşlıq Təşkilatı dünya əhalisinin 41%-ni, dünya üzrə ÜDM-nin 34%-ni təşkil edir və məhz bu baxımdan hesab edilir ki, həqiqətən də artıq ŞƏT indi çoxqütblü dünyanın əsas mərkəzlərindən biridir.

"Bu, yaradılış fəlsəfəsinə, bərabərhüquqlu əməkdaşlığa açıqlığa, üçüncü ölkələrə qarşı yönəlməməyə, milli xüsusiyyətlərə, hər bir xalqın özünəməxsusluğuna hörmətlə bağlı möhkəm öhdəlikdir", deyə Vladimir Putin "Sinxua" xəbər agentliyinə müsahibəsində ŞƏT-in populyarlığını açıq və çox aydın şəkildə izah edib. Maraqlıdır ki, görəsən bu, məhz praktikada necə işləyir? Qeyd edək ki, Rusiyaya SWIFT ödəniş sisteminə giriş qadağan edildiyi zaman alternativ ödəniş sistemi yaradıldı və tərəfdaşlarla milli valyutalarda ticarət aparıldı. Uçuşlar, limanlardan istifadə və Avropa vasitəsilə yüklərin daşınması qadağan edildiyi zaman Leninqrad vilayətindəki Ust-Luqadan İranın Bəndər Abbasa qədər "Şimal-Cənub" dəhlizi məsələsi aktuallaşdı.

Şanxay Əməkdaşlıq Təşkilatının necə bir mərkəz olması barədə müvafiq qənatə gələn siyasətçilər heç də az deyil. "ŞƏT dünyada baş verən proteksionizm dalğası, texnologiya və elmi mübadilələrə çıxışın məhdudlaşdırılması dalğası, regionallaşmanın artması kimi çağırışlara və dəyişikliklərə cavab verir ki, ölkələr öz bazarlarını beynəlxalq qaydalar və ÜTT normaları çərçivəsindən kənarda təcrid etməyə çalışırlar", deyə Rusiya Federasiyasının İqtisadi İnkişaf Naziri Maksim Reşetnikov bildirib. Deməli, nazir artıq təşkilatın nə dərəcədə əhəmiyyətli olduğuna işarə edir. Təkcə bir ölkənin naziri deyil, elə hər kəs üçün bütün bunlar daha qətiyyən sirli, yaxud da, möcüzəvi sayılmır.

## Brüssel və Vaşinqton qorxusu artıq yoxdur və ölkələr hazırda ŞƏT-ə üzv olmaqda maraqlıdırlar

Belə görünür ki, açığı, artıq heç kim Brüssel və Vaşinqtondan daha qorxmur. Elə bir qənaət hasil olub ki, artıq hansısa bir ölkə indi tək deyil və əslində, dünyanın qalan hissəsindən getdikcə daha çox təcrid olunan məhz elə NATO özüdür. Çünki sözügedən təşkilat tam fərqli yanaşma sərgiləyir. ŞƏT məhz bir-birlərini eşitməyə çalışanların fərqli birliyidir. "İndi burada əyalət şəhərlərindən çoxlu insan var. İnanmaq çətindir, lakin hətta yaxın ərazilərdən olan insanlar heç vaxt avropalıları şəxsən görməyiblər", deyə Moskvada anadan olan, lakin səkkiz ildir ki, Tianjində musiqi və vokal dərsi keçən Marina Palaznik bildirib. Belə çıxır ki, hər kəsin təşkilata marağı və ondan gözləntiləri də böyükdür.

Ölkələrin əksəriyyəti, özü də ən qabaqcıl ölkələr hazırda ŞƏT-ə üzv olmaqda maraqlıdırlar. "Onlar nə anladılar? Gördülər və anladılar ki, amerikalılar harada fəaliyyət göstərsələr, məsələn, Avropada və ya Asiyada olsalar, həmin yerlərdə qeyri-sabitlik, xaos və böhran yaradırlar. Bu gün biz elə bir dövrdə yaşayırıq ki, Çin "dizlərini əyməkdən", diz çökməkdən imtina edir. Elə məhz Rusiya da eyni şeyi etməkdən imtina edir", deyə Bertrand Schoeller bildirib.

Bəli, görünən odur ki, indi artıq bütün planetin diqqətinin 26 ölkənin liderinin toplaşacağı görüşə yönəlməsi heç də əsassız deyil. Yəni, tamamilə məntiqidir. Çünki dünya ictimaiyyəti fərqindədir ki, burada iqtisadiyyat, təhlükəsizlik və böyük siyasət sahələrində qəbul edilən qərarların bütün dünya üçün nəticələri olacaq. Belə olan halda da cəsarətlə deyə bilərik ki, çoxqütblü dünyada yeni qlobal arxitektura artıq özünü biruzə verməkdədir...

***İnam Hacıyev***

# Zəfər rəmzlərimiz

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvələri isə, sözün həqiqi mənasında, mövqelərini qoyub qaçdılar. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarından düşməndən qənimət götürdüyü qənimətlər Hərbi Qənimətlər Parkında nümayiş olunur. Bu Vətən müharibəsində Ordumuzun gücünün, işğalçı Ermənistanın məğlubiyyətinin göstəricisidir. Parkın adı hər şeyi demiş olur. 44 günlük müharibədə Azərbaycan ordusunun gücü nəticəsində erməni ordusu məhv








edilərək, məğlubiyyət uğradı. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti dünyaya səs saldı. 44 günlük müharibə zamanında Azərbaycan uğurlu əməliyyat keçirərək 30 ilə yaxın zamanda işğal altında qalmış torpaqlarını erməni təcavüzkarlarından azad etdi. Bu gün Bakıdakı Hərbi Qənimətlər Parkı 44 günlük müharibənin gedişi, Azərbaycan ordusunun qalibiyyəti ətrafında olan fikirləri əks etdirir. Belə ki, ermənilərin döyüş meydanından qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri olan Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hərbi Qənimətlər Parkının açılışı zamanı lövhənin qarşısında çıxış edərkən bildirmişdi ki, Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb: "Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu var".

Artıq bu gün ermənilərin yaratmaq istədikləri mif dağıdılıb. Ölkəmizin dinamik inkişafı, güclü ordu quruculuğu, beynəlxalq münasibətlərdə Azərbaycanın milli maraqlarının müdafiəsi və təmin edilməsi ölkəmizin nüfuz və mövqeyini yüksəldib. Artıq Azərbaycan ordusu 90-cı illərin ordusu deyil. Nizami və güclü Azərbaycan ordusu var. Dövlət başçısı bildirib ki, hələ müharibənin getdiyi dövrdə Mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik. Həmin gün yetişdi. Cənab Prezident "Buraya gələn hər bir insan - Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər", - deyərək bildirib ki, qoy ermənilər də görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı: "Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!"

44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törətdi. Döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirərək, dinc sakinləri qətlə yetirdi. Sərgilənən eksponatlar həm də düşmənin törətdiyi müharibə cinayətlərini özündə əks etdirir. Həmin qənimətlər arasında düşmənin dinc əhalimizin yaşadığı əraziləri və gecə saatlarında yaşayış binalarını hədəfə alaraq ölkəmizə atdığı "İsgəndər-M" raketlərinin qalıqları var. Prezident İlham Əliyev "Şuşanı bax, bu "İsgəndər-M" raketləri ilə ermənilər atəşə tutmuşdular",- deyərək bunun Ermənistanın hərbi cinayətinin sübutu olduğunu bildirib: "Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan "İsgəndər-M" raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər".

## ZƏFƏR GÜNÜNÜ VƏ SARSILMAZ BİRLİYİ TƏCƏSSÜM ETDİRƏN ABİDƏ

Düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, onların hərbi resursları darmadağın edildi. Hərbi Qənimətlər Parkı Azərbaycanın əldə etdiyi tarixi Zəfərdə düşmənin məğlubluğunun nümayişi baxımından böyük əhəmiyyət malikdir. Azərbaycan tarixi qələbəni əldə etdi. Özü də 44 gün ərzində. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. "Bu gün alnımız açıqdır, üzümüz gülür, başımız dikdir və həmişə belə olacaq. Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq", - deyən Prezidentin fikirləri böyük reallıqlara söykənir.

Tarixi Zəfərimizdən sonra Azərbaycanda Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyləri yaradılır.

Bildiyimiz kimi, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı.

Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.

Artıq paytaxtımızda Zəfər parkı istifadəyə verilib. Paytaxtın 8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi 10 hektara yaxındır. Parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib. Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılıb. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirir. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınıb. Torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə parkın ərazisində Zəfər muzeyi də yaradılır. Qurulmaqda olan Zəfər muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Muzeydə Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini nümayiş etdirəcək. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılıb. Yaddaş bağçasının ətrafında istirahət guşələri salınıb. Parkın sonunda Azadlıq Bayrağı Meydanı inşa olunub.

## ŞƏRQİ ZƏNGƏZUR VƏ QARABAĞ BÖLGƏLƏRİNDƏ İŞĞAL VƏ ZƏFƏR MUZEYLƏRİ KOMPLEKSLƏRİ

Azərbaycanın otuzillik erməni işğalından azad olunmuş Şərqi Zəngəzur və Qarabağ bölgələrində əzəli yurd yerlərimiz vandalizmə məruz qalıb, tarixi-mədəni mirasımız yerlə-yeksan edilib. Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş rayon və şəhərlərdə İşğal və Zəfər muzeyləri kompleksləri yaradılır. Belə muzey komplekslərindən biri də Laçında yaradılır. Aərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksinin təməli qoyulub. Laçın rayonunda qurulacaq kompleks İşğal və Zəfər muzeylərindən, dağıntıların nümayiş etdiriləcəyi memorial parkdan ibarət olacaq. Kompleksin loqosu əsrarəngiz gözəlliyə və təbii zənginliklərə malik Laçın rayonu ərazisində geniş yayılmış ardıc ağaclarını simvolizə edir.

Ümumi sahəsi 3,5 hektar olacaq kompleks üçün seçilmiş ərazi yamacda yerləşir. Buradan Laçın şəhərinə, ətrafdakı dağlara gözəl mənzərə açılır. Kompleks əsas yol şəbəkəsinə və şəhərin mərkəzinə yaxın məsafədə yerləşir. İşğal və Zəfər muzeylərinin yerləşdiyi mərtəbələrdə muzeylərin tematikasını əks etdirən bədii instalyasiyalar nümayiş olunacaq, zallarda isə müxtəlif məzmunlu sərgilər təşkil ediləcək. Kompleksin ərazisində şəhərin dağıdılmış bir çox tarixi və mədəni abidələrinin qalıqlarının nümayiş etdiriləcəyi Memorial Park salınacaq. Memorial Parka daxil olan dağıntılar bədii instalyasiyalarla zənginləşdiriləcək açıq səma altında muzeyə çevriləcək. Qeyd edək ki, muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən və Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

Azərbaycan 44 günlük Vətən müharibəsində neçə illərə bərabər bir yol getdi, döyüş əməliyyatı apardı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib oldu. 30 illik bir həsrətə son qoyuldu və tarixi torpaqlarımız işğaldan azad olundu. Xalqımız üçün geniş yollar açıldı. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Sentyabr ayında turizmin inkişaf istiqamətləri: Dünyada və Azərbaycanda vəziyyət

***Sentyabr payız turizmi üçün "köçürmə" mövsümü hesab olunur: yaydan qayıdış, məktəb ilinin başlanması, həmçinin səyahətçilərin daha qeyri-adi, təcrübə yönümlü və davamlı tələblərə yönəlməsi müşahidə olunur. 2025-ci ildə qlobal turizm pandemiyadan sonra bərpanı davam etdirir; lakin iqlim dəyişikliyi, iqtisadi təzyiqlər və səyahət prioritetlərinin dəyişməsi (daha məqsədli, sağlamlıq və təcrübə yönümlü səyahətlər) sektorun taktikasını yenidən müəyyən edir.***

## Sentyabr ayında turizmin inkişafı: Dünyada və Azərbaycanda vəziyyət

SİA mövzu ilə bağlı araşdırma aparıb.





## Dünyada vəziyyət

**Payız turizminin artması:** Yay mövsümü bitdikdən sonra səyahətlərin sayı azalır, amma sentyabrda "mövsüm uzatma" adlanan mərhələ başlayır. İnsanlar daha sakit, izdihamsız və təbiətlə bağlı yerlərə üstünlük verirlər.

**Yeni maraqlar:** İnsanlar indi sadəcə istirahət yox, həm də sağlamlıq, kənd həyatını tanımaq, təbiət gəzintiləri və mədəniyyətlə bağlı səyahətlərə maraq göstərirlər.

**İşgüzar və tədbir turizmi:** Konfranslar, sərgilər, seminarlar və musiqi festivalları sentyabr ayında daha çox keçirilir.

**Çətinliklər:** İqlim dəyişikliyi, aviareyslərin qiymətlərinin qalxması və bəzən təhlükəsizlik problemləri turizm planlarına təsir edir.

## Azərbaycanda vəziyyət

**Turistlərin sayı artır:** 2025-ci ildə Azərbaycana gələn turistlərin sayı artmaqda davam edir. Bu artım yay mövsümündən sonra da davam edərək sentyabrda ölkə üçün yeni imkanlar yaradır.

**Yeni bazarlar:** Azərbaycana təkcə qonşu ölkələrdən deyil, həm də Afrika və digər uzaq regionlardan turistlər gəlir.

**Mövcud imkanlar:** Azərbaycanın təbiəti, tarixi abidələri, mətbəxi və sağlamlıq mərkəzləri (Naftalan, Qəbələ və s.) payız turizmi üçün çox uyğundur.

## Sentyabrda inkişaf istiqamətləri

**Təbiət və kənd turizmi:** Yarpaqların rənglənməsi, məhsul yığım festivalları, kənd həyatı ilə tanışlıq.

**Sağlamlıq turizmi:** Termal mənbələr, spa və sanatoriyalar, sağlamlıq düşərgələri.

**Mədəni və kulinariya turları:** Muzeylər, qalalar, milli mətbəx festivalları.

**İşgüzar turizm:** Konfranslar, sərgilər və korporativ görüşlər.

**Şəhər gecə turizmi:** Bakı və digər şəhərlərdə gecə tədbirləri, işıqlandırılmış gəzintilər, konsertlər.

## Faydalar və risklər

**Faydalar:** Turizmin yalnız yay mövsümünə bağlı qalmaması, regionlarda iqtisadi canlanma, yeni iş yerləri.

**Risklər:** Hava şəraitində gözlənilməz dəyişikliklər, qiymət artımı, bəzi bölgələrdə infrastrukturun zəifliyi.

Sentyabr ayı Azərbaycan üçün böyük bir fürsətdir. Əgər təbiət, kənd həyatı, sağlamlıq və mədəniyyət sahələrində düzgün layihələr həyata keçirilsə, ölkəmiz yalnız yay mövsümündə deyil, ilin digər fəsillərində də çoxlu turist cəlb edə bilər.

## Ən çox turist göndərilən ölkələr sırasından sentyabr ayında populyar olan ölkələr

*Sentyabr ayında turistləri cəlb edən ölkələr*

<u>İtaliya (Siciliya, Roma)</u>

Sentyabrda yay sıxlığı azalır, hava sərinləşir və izdihamdan uzaq rahat səyahət imkanı yaranır. Siciliya festivallarla (kino, kulinariya) diqqət çəkir; Roma isə açıq kinoseansları, musiqi və mətbəx tədbirləri ilə zəngindir.

## Yunanıstan (Dodekanes Adaları və Santorini)

İsti, lakin gərgin olmayan hava və sakit çimərliklər: sentyabr Yunanıstana rahat istirahət üçün ideal vaxtdır. Santorini eyni zamanda gözəl mənzərələr və yerli şərabı ilə çox sevilir.

## İspaniya (Barselona, Costa del Sol)

Sentyabrda Barselonada həm hava əlverişli olur, həm də La Merç? kimi mövzu festivalları keçirilir. Costa del Sol sahillərində səyahət hələ də yaydan fərqli olmayacaq qədər xoşdur.

## Türkiyə (Turkuaz Sahili: Antalya, Kapadokya, İstanbul)

Hələ də isti yay havası qalır, amma turistik sıxlıq azalıb. Sentyabr həm dincəlmək, həm də gəzmək üçün çox əlverişli aydır. Xüsusən Antalya, Alanya kimi yerlər daha sərfəli qiymətlərlə seçilir.

## Portuqaliya

Sentyabrda günəşli hava, üzüm yığım mövsümü və daha az turistik sıxlıq turisti cəlb edir. Douro vadisində şərab festivalları da əlavə rəng qatır.

## Yeni Zelandiya

Sentyabr Avstraliyaya qarşıdır - burada yaz başlayır və təbiət gülümsəyir: çiçəklər açılır, dağlarda qar qalır və açıq hava fəaliyyətləri üçün ideal şərait yaranır.

## Cənubi Afrika

Sentyabrda Kruger parkı kimi milli parklarda heyvanları daha asan görmək mümkündür. Qeyr-adi gəzintilər və vadilərdə gül örtüyü də turizm üçün aktualdır.

## Yaponiya və Cənubi Koreya

Yaponiya payız rəngləri və ənənəvi festivallarla, Cənubi Koreya isə xoş payız havası və festival proqramları ilə seçilir.

İndoneziya (xüsusən Bali) və Şri-Lanka Bali daha sakit, ucuz və mədəni təcrübə yönümlü bir seçim olur. Sri Lanka gür meşələr, fil sürüləri və dini festival təklifləri ilə (məsələn, Kandy və Trincomalee yönləri) cazibədardır.

## Mərakeş

Sentyabrda Mərakeşin Medina bölgəsi daha dözümlü hava ilə turistləri cəlb edir; bazarlar, saraylar və gecə həyatında sehrli ab-hava yaşanır.

Mövzu ilə bağlı Turizm eksperti Ceyhun Aşurovun fikirlərini öyrəndik: "Yay fəsli artıq arxada qaldığı üçün sentyabr ayında payız turizmi aktivliyinin başlanması gözlənilir. Azərbaycanda məktəblərin 15 sentyabrdan etibarən dərs ilinə başlaması səbəbindən sentyabrın ilk yarısında daxili turizmin hələ də müəyyən aktivlik göstərəcəyi proqnozlaşdırılır. Eyni zamanda, ölkəyə gələn xarici turistlərin də yay mövsümündə olduğu kimi, mövsümün sonu tur paketlərindən istifadə etməsi gözlənilir.

Sentyabr ayının turizm üçün xüsusiyyətləri aşağıdakılardır:



**1.** Sanatoriya və istirahət mərkəzlərinə tələbin artması: Məktəblərin və iş təqviminin başlanması ilə insanların sərbəst vaxtı daha məhdud olur. Buna görə də, boş vaxtı olan və sakit istirahətə üstünlük verən turistlər daha çox sanatoriya, istirahət və təbiət mərkəzlərinə yönəlirlər. Bu seqment əsasən orta və yaşlı nəsli əhatə edir.

**2.** Yay mövsümü ilə müqayisə: Yay turizmi daha aktiv hesab olunur; dünyada insanların təxminən 80%-i yay mövsümündə istirahət planlaşdırır. Sentyabr isə yay mövsümünün bitməsindən sonra nisbətən sakit bir dövr kimi xarakterizə olunur.

**3.** Yeni uçuş istiqamətlərinin təsiri: Sentyabr ayında ölkəyə əlavə uçuşların təşkil olunması, yeni turizm istiqamətlərinin açılması daxili və xarici turist axınını stimullaşdırır.

**4.** Qiymət və doluluq dinamikası: Digər mövsümlərlə müqayisədə, sentyabr ayı qiymətlərin nisbətən sabit olduğu və doluluğun yay mövsümü qədər yüksək olmadığı dövr hesab olunur. İnsanların ən sıx olduğu bölgələrdə, sentyabrın ikinci yarısından etibarən turist sayında müəyyən azalma müşahidə edilir ki, bu da qiymətlərə təsir edir. Nəticə etibarilə, sentyabr ayı Azərbaycanda turizm üçün köçürmə mövsümü kimi xarakterizə olunur: yay mövsümünün aktivliyindən sonra daxili turizm yavaşlayır, lakin sanatoriya və istirahət mərkəzləri üzrə xüsusi tələbat qalır. Bu dövr, həm daxili turistlərin, həm də xarici qonaqların payız turizminə uyğun planlaşdırma dövrü hesab olunur".

***Ayşən Vəli***

# Tez-tez ev dəyişmək: daha çox kim əziyyət çəkir...



***Ev nədir? Daş-kərpiclə tikilən, dörd divardan ibarət mənzildir. Lakin bu dörd divarın içərisində insanın başqa heç yerdə tapa bilməyəcəyi bir istilik var. Hara gedirsənsə, get, o istilik səni geri çağırır. Bu divarların arasında bir rahatlıq var. Başqa heç yerdə tapa bilməyəcəyin rahatlıq.***

Ev hər bir insanın sığındığı "yuvadır". Burada bir ailə də var. Bu ailə üzvlərinin hər biri üçün həmin dörd divarın arasından əziz, rahat bir məkan yoxdur. Odur ki, səhər çıxıb, axşam evə tələsirsən. Hansı bir iş, gəzinti, alış-veriş üçün gedirsənsə, dönəcəyin yer səni səsləyən evindir. Çünki səni orada isti ocağınla yanaşı, həm də ailən-həyat yoldaşın, övladların, onların şirin söhbəti, dörd divarın arasını dolduran şaqraq gülüşlər gözləyir. Bir-birinə sözünü açıq ürəklə deyən, məsləhətləşən bir ailə. Bir evin içərisinə sığınan, onu doğma yuvası bilən bir ailə...

## Evlərini tez-tez dəyişənlərə...

Müasir dövrümüzdə evini tez-tez dəyişən insanlarla qarşılaşırıq. Onlar təbii ki, başqalarından fərqli-yəni bunu etməyə imkanı olanlardır. Hansı ki, adamlar var ki, bir ömür çalışır, lakin kirayələrdən qurtula bilmir. Ailələr var ki, övladını ev səbəbindən evləndirə bilmir. Çünki nə ev ala bilmir, nə də torpaq alıb ev tikmək imkanı yoxdur. Lakin elələri də var ki, bəlkə də 5-10 evi var. Bu evləri isə tez-tez dəyişir. Başa düşüləndir ki, əksər insan yayı bağ evində, qışı başqa bir evində yaşayır. Söhbət bundan getmir. Yaylı-qışlı ev dəyişənlər var ki, bəlkə də il ərzində onu bir neçə ünvanda axtarmalı olursan. Belə insanlar bəlkə də bizim yazımızı oxusalar, deyərlər ki, bircə bu işə qarışmağınız qalmışdı. Özümüz bilərik, hansı evə köçürük, hansı evdə yaşayırıq. Lakin biz onların tez-tez köçməsindən əsla narahat deyilik. Sadəcə tez-tez köçməyin heç də yaxşı olmayan tərəflərindən danışmaq istəyirik.

Baxmayaraq ki, köçmək heç də asan iş deyil, lakin bunu edən insanlar var, xüsusilə də kişilər. Bir evi alır, təmir etdirir, daha sonra başqa bir ev alır, o evə köçür, köhnəni baha qiymətə kirayə verir. Beləliklə, bir neçə ev dəyişməklə həyatına davam edir. Bəs bu tez-tez köçmələrin nə ilə nəticələndiyi barədə necə, fikirləşirmi?

## Ev düşərli və düşərsiz olur

Hər birimiz həyatımızda dəfələrlə evin düşərli və ya düşərsiz olması qənaətinə gəlmişik. Ev var ki, köçən bir gündən hiss edirsən ki, ruzi-bərəkəti gündən-günə artır. Bu evdə tez-tez yeni, xoş hadisələr, xoşbəxt günlər yaşanır. Bütün bunlarla yanaşı, həm də evin yerləşmə səmti də var ki, evə günəşin düşməsini şərtləndirir. Bu cür evlər daha gözəl evlər hesab edilir. Çünki atalar da deyir ki, günəş düşən evə həkim girməz.

Belə bir evi insan qoyub necə yenisinə köçə bilər? Lakin köçənlər var. Nəyə görə köçürlər? Daha çox pul qazanmaq üçün. Axı dövrümüzdə ev biznesi ilə məşğul olanlar saysızdır. Bəs yeni evdə köhnə evdə olduğu kimi, bütün işlər yaxşı gedirmi? Qonşular necə, buradakılar kimi səmimi ola bilirmi?

Bütün bunlar haqqında danışacağıq. Lakin gəlin elə birinci köçdən danışaq. Etiraf edənlər çox olar ki, dünyada köçdən əziyyətli iş yoxdur. Kənardan nə qədər kömək olsa da, lakin ən zəhmətli iş evin qadınının üzərinə düşür. Yeni evi nizama salmaq, əşyaları yerləşdirmək, pal-paltarı dolaba yığmaq, qab-qacağın yerini müəyyən etmək günlərlə vaxt aparır. Belə isə tez-tez ev dəyişdirən kişilər görəsən qadınları düşünürmü? Yoxsa, həmin qadınlar kişilərin bu evdəyişmə sevdasından çoxdan bezib, sadəcə səslərini çıxarmırlar?

## Evdəyişmədə ən çox zərbə alan uşaqlardır

Tez-tez evdəyişmədə ən çox sarsılan, əziyyət çəkən uşaqlardır. Valideynlər bu hobbiləri ilə uşaqlarına nə qədər psixoloji sarsıntı yaşatdıqlarının fərqinə varırmı? Bir neçə dəfə təsadüf etmişəm, yeni köçən ailələrin uşaqlarına. Onlar aylarla özlərinə gələ bilmirlər. Bir mühitdən başqa bir mühitə düşmək olduqca çətin olur. Axı onlar köhnə evlərində məhəllə uşaqlarını, dostlarını, sinif yoldaşlarını qoyub gedirlər. Valideynlərinin pul qazanmaq həvəsi onları dostlarından, doğma mühitdən ayırır. Və beləliklə, həmin uşaqlar aylarla, bəzən ildən artıq zaman kəsiyində özlərinə gələ bilmirlər. Maraqlıdır, görəsən, valideynlər bunu hiss edirmi? Uşaqların düşdüyü vəziyyət onları narahat edirmi? Bəlkə də hiss edirlər, lakin gəlir əldə etməyin şirinliyi, "əşi, uşaqdır, uyğunlaşar", deyib keçməklə bitir.

Lakin bu tez-tez köçmələr uşaqlarımızın psixologiyası, sağlamlığı üçün təhlükəlidir. Bir sözlə, köçdə ən çox əziyyət çəkən uşaqlardır.

## Qonşu həmişə yaxşı olmur

Gündəlik həyatımız üçün ən vacib şərtlərdən biri də qonşudur. Çünki qonşu yaxşı olmasa, insanın günü ah-vay ilə keçir. Baxmayaraq ki, şəhər yerlərində bir o qədər qonşuluq əlaqələri yoxdur, günlərlə qonşunu görən də olmur. Lakin yaxşı qonşu ilə hər zaman qarşılaşmaq da olmur.

Məsələn, qonşular var ki, tullantıları evindən çıxarıb, aparıb atmaq əvəzinə, saatlarla, günlərlə qapısının ağzına qoyur. Sən də bununla qarşılaşdığın üçün narahat olursan. Deyirsən, yenə də mənası olmur. Qonşu var ki, yuxarıda elə bir həngamə çıxarır ki, az qalır çilçıraq yerindən qopub aşağı yuvarlansın. Gedib deyirsən, 1-2 saatdan sonra yenə həmin həmindir. Qonşu var ki, televizora elə səs verir ki, öz evində rahatlıq tapa bilmirsən. Qonşu var ki, evini kirayə verdiyi adamlar elə hərəkətlər edir ki, ta evindən köçəcək olursan.

Lakin qonşu da var ki, illərlə qonşu olursan, evindən nə bir artıq səs gəldiyini eşidir, nə onunla bir problem yaşayırsan. Hələ get-gəlin də olur. Qarşıda bu münasibətlər qohumluq əlaqələrinə də çevrilir. Özünə yaxın dost, rəfiqə qazanırsan. Beləliklə, qonşu münasibətləri heç də asan məsələ deyil. Odur ki, yeni evə köçəndə hər kəs Allahdan özünə yaxşı qonşular arzulayır. Lakin bu arzular reallaşa da bilir, bunun əksinə də olur. Yaxşı qonşuları qoyub yeni evlərə köçmək isə ən ağılsız hərəkətdir. Dünyada hər şeyin maddiyyat olmadığını düşünən zaman yaxşı qonşu anlayışı da çıxır ortaya. Belə olan halda isə, necə deyərlər, ağıllı adam yaxşı qonşunu qoyub heç yerə getməz.

## Evi tez-tez dəyişəndə ocaq olmur

Deməli, evdəyişmədə ən əsas olan bir neçə məsələ-evin düşərli, düşərsiz olması, köçməyin çətinliyi, ev dəyişmənin uşaqlara vurduğu zərbələr və qonşuluq münasibətləri haqqında danışdıq. Elə köçün əsasını da bunlar təşkil edir. Və hər biri də ayrı-ayrılıqda vacib olan məsələdir. Belə isə tez-tez ev dəyişmək nə dərəcədə doğrudur? Bunun maddi tərəfini bir kənara qoyub, mənəvi tərəfini nəzərə alan varmı? Yoxsa, maddiyyat mənəviyyatı elə üstələyib ki, bu vacib amillərə nəzər salan yoxdur...

Bütün bunlarla yanaşı, daha vacib bir məsələdən də danışmaq yerinə düşər ki, biz evə həm də ocaq deyirik. Ev, bəli, yanar ocaqdır. Çünki orada nəfəs var. Qapısı hər gün açılır-örtülür. Bu evdə xatirələr, ötən xoş günlər var. Ona görə də orada bir ocaq istisi də var ki, evimizə ocaq deməyə əsas verir. Lakin tez-tez dəyişilən evlərdə bu ocaq sanki yanır, sönür. Necə ki, ocaq çırtaçırtla yanır, ətrafa istilik saçır, bu zaman adama çox xoş gəlir. Eləcə də evin ocaq olmasını şərtləndirən amil onun uzunömürlüyündədir. İllər lazımdır ki, ev ocağa çevrilsin. Biz nə edirik, ocaq şirin-şirin yanmağa, ətrafa xoş bir isti yaymağa başladığı anda əlimizə dırmıq, bel alıb onu dağıdır, çırtaçırtla yanmasına imkan vermirik. Belə olanda isə nə evdən, nə də ocaqdan söhbət gedə bilər. Elə tez-tez köçməkdən bezən xanımlar da, dostlarından ayrı düşdüyü üçün əziyyət çəkən uşaqlar da həmin yeni-yanmayan, tüstüləyən ocaqda köçməyin tərəfdarı olan kişilərdən fərqli olaraq heç bir istilik tapa bilmirlər. Deməli, evləri ocağa çevrilə bilmir...

Belə isə tez-tez ev dəyişməyin bir mənası varmı?..

***Mətanət Məmmədova***



Lalə Mehralı

# Yalqızam, yalqız...

Hamımızın asılı olduğumuz virtual həyat sizcə də yalnızlığımızın əsasını qoymayıb? Həyatımızı virtual müstəvidə yaşamağa başlayandan sosial yalnızlığımız da artıb. Virtual dünyanın ünsiyyət qatilinə çevrilməsi bizim sosial çevrəmiz üçün də təhlükədir. Ətrafımızda canlı söhbət edə bildiyimiz, dərdləşəcəyimiz, sevincimizi bölüşəcəyimiz adam qalmadığının fərqindəsinizmi? Bütün dostlarımız virtual platformadadır, tanışlarımızla orada söhbətləşirik, səs atırıq, səs alırıq, görüntülü danışırıq, şəkil, mesaj, paylaşım... Birlikdə canlı ünsiyyət zamanı müzakirə edəcəyimiz hər şeyi bir-birimizin "story"sində izləyib və köks ötürürük, ya həsəd aparırıq, ya da sevinirik. Övladı, toyu olan, oğlu-qızı məktəbə, universitetə başlayan dost-tanışımıza qonaq gedib canlı-canlı təbrik etmək yerinə şəkil paylaşıb diləklərimizi, təbriklərimizi yazırıq. Yoxsa küsər axı...

Ailə süfrələrində, dost məclislərində ruhən qidalandığımız anları xatırlayın. Üzbəüz ünsiyyət, canlı söhbət, real münasibətdən sonra rahatlamış, dincəlmiş hiss edir insan. Həm ruhən , həm mənən sakit həyatımız var. Qaçhaqaç, qovhaqov deyildi heç nə. 24 saat necə uzun idi, hər şeyi sığışdıra bilirdik içinə. Bir də indiki vəziyyətimizə baxın, 24 saat bizə yetmir, hər işimiz yarımçıq qalır, yeriməyi, dincəlməyi, gəzintiyə çıxmağı unutmuşuq. İnkişaf, texnologiya nə verdi, nə aldı bizdən, hesabını etsək o bizə borclu qalar.

Ünsiyyət vasitələri insanın mövcud olduğu tarixdən bu günə qədər həm də sosial təkamül hesab edilir. Poçt göyərçinləri, günəşin doğması və batması vaxtına uyğun vədələşmək, teleqraf, teleqram, faks, teletayp, məktub kimi ünsiyyət vasitələri, əslində, sosiallaşmanın ilkin nümunəsidir. Rabitə texnologiyalarının inkişafı ilə bu sahədə yenilik durmadan artdı və günümüzdəki texnologiya əjdahası - internet yarandı. Yarandı və bizi əsir aldı.

Rəqəmsal sistemə keçməzdən əvvəl ünsiyyət qurmaq üçün müəyyən vaxta ehtiyacımız var idi, əvvəl görüş təyin edirdik, sonra görüşür, sosiallaşırdıq. Həyat normal axarında idi, tələsmirdik, qaçmırdıq, yorulmurduq. Lakin indi bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsindəki tanışımızla ünsiyyət qura bilirik, mesajla, adi zənglə, görüntülü zənglə və s. Texnologiya o qədər sürətlə inkişaf edir ki, bəzən özümüz də onun sürətinə yetişə bilmirik. Ən son modelini aldığımız telefonun menyusunu öyrənməmiş yeni versiyası satışa çıxarılır, 2 ay əvvəl son versiyasını aldığımız televizorumuz yeni versiyası çıxan kimi gözümüzdən düşür. Bu texnoloji yarışın fonunda həyatımız keçib gedir. Əvvəl texnoloji yenilikləri addım-addım izləyən bəzilərimiz indi bu qaçaqaçdan yorulub hər şeyi həyatın axarına buraxırıq. Çünki gec də olsa fərqindəyik ki, yeni istehsal edilən hər texnoloji alət bizi normal həyatdan bir qədər də uzaqlaşdırır.

İnsanlar sosiallaşma ehtiyaclarını və real həyatdakı ünsiyyətlərini rəqəmsal platformalara köçürdükdən sonra dostluq, qohumluq əlaqələri də müstəvi dəyişdi. Real həyatdakı münasibətlərimiz indi bir-bir sosial platformalara keçir. Başqa sözlə desək, sosiallaşmaq da zamanla rəqəmsallaşdı. Otaqdan otağa keçməyə ərinən, ailə üzvlərinə sözünü votsapla deyən insanlara çevrildik.

Yalnızlığını gizləyən insanlarla doludur virtual dünya. "Baxın, nə qədər xoşbəxtik", "bu gün yenə çox xoşbəxtəm", "bu da bizim mehriban və kiçik ailəmiz", "mənim pişiyimlə olan kiçik dünyam", "bu mənim itim deyil, övladımdır və onunla çox xoşbəxtəm", "özümlə vaxt keçirməyi sevirəm" tipli paylaşımları əslində o insanların yalnızlıq haraylarıdır. Ailəsi ilə eyni süfrədə oturub başını telefonuna əyən insan düşdüyü, əsir olduğu dünyanın təsirindədir. Xoşbəxt, sosial çevrəsinin məhəbbəti ilə bürünmüş, canlı ünsiyyət problemi olmayan insanın süfrədə, ən xoşbəxt olduğu anlarda telefon, sosial şəbəkə, paylaşım yadına düşmür çünki. Ailəsi ilə eyni süfrədə ikən canlı ünsiyyətin keyfinə varmayan, əlində telefon sosial şəbəkələrdə canlı açmaq dərdinə düşən insan sosiallaşmır, sadəcə virtual dünyadan asılı olduğunun fərqində deyil. Nə qədər çox paylaşım, o qədər çox yalnızlıq.

PS: "Smart Insights"in məlumatlarına görə, hazırda dünyada 4,62 milyard sosial şəbəkə istifadəçisi var, aktiv internet istifadəçisinin sayı isə 5 milyarda yaxınlaşıb. İstifadəçilərin sayı artdıqca insanların sosial şəbəkələrdə keçirdikləri vaxt da artır. Hesabata görə, insanlar gündə təxminən 2,5 saatını sosial platformalarda keçirirlər. Amma məncə bu 2,5 saat reallığı əks etdirmir, özünüzü və tanıdıqlarınızı analiz edin, biləcəksiniz.

P.S.S: İnsan təbiətdən nə qədər aralı düşürsə sağlamlığından, psixologiyasından bir o qədər pay verməli olur. Nə qədər virtual həyat, bir o qədər yalnızlıq...

# “Avropa İttifaqı Azərbaycanın mövqeyini qəbul etməlidir”

**“Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin bugünkü vəziyyəti bir qədər fərqlidir. Fərq ondadır ki, bir tərəfdən Azərbaycan və Avropa İttifaqına daxil olan bir sıra dövlətlər - təxminən 9 dövlət arasında strateji tərəfdaşlıq müqavilələri mövcuddur”. Bunu SİA-ya politoloq Samir Hümbətov deyib.**

O bildirib ki, bu müqavilələr həmin ölkələrlə münasibətləri Azərbaycanın prioritet xarici siyasət istiqamətlərinə çevirir:






”Bununla paralel olaraq Azərbaycanın enerji diplomatiyasında Avropa İttifaqı ölkələrinin bir çoxu mühüm əhəmiyyət kəsb edir. Azərbaycan qazı şaxələnmiş formada TAP (Trans-Adriatik Boru Kəməri) layihəsi vasitəsilə Avropaya çatdırılır və Cənub Qaz Dəhlizi bu prosesin ən vacib nümunələrindən biri sayıla bilər.

İkinci bir məsələ isə Azərbaycanın alternativ və bərpa olunan enerji sahəsində atdığı addımlardır ki, bu da Avropa İttifaqı ilə münasibətlərə mühüm təsir göstərir. Siyasi tərəfə baxdıqda isə biz Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərdə müəyyən bir gərginlik və ya soyuqluq olduğunu görə bilirik. Avropa İttifaqında liderlik edən Fransa və bəzi digər ölkələr zaman-zaman Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsində - indi artıq münaqişə başa çatdığı üçün - münasibətlərin qurulmasında nəinki yardım etmirlər, əksinə, münasibətlərin gərginləşməsinin tərəfdarı kimi çıxış edirlər. Fransanın Ermənistana silahlandırma cəhdləri və s. bu gərginliyin açıq nümunələridir. Hal-hazırda Avropa İttifaqının mülki missiyası adı altında keçmiş hərbçilərdən və təhlükəsizlik işçilərindən ibarət qrupun Ermənistan-Azərbaycan sərhədinə yerləşdirilməsi də bu dediyimiz siyasi gərginliyin bir təzahürü ola bilər. Təbii ki, 8 avqustdan sonra Ermənistan və Azərbaycan arasında münasibətlər yeni bir mərhələyə, yeni bir məzmuna keçib. Düşünürəm ki, Avropa İttifaqı da əgər bu dəyişiklik prosesində özünü müsbət tərəfdən göstərərsə, tərəflər arasında münasibətlərin düzəlməsi və inkişaf etdirilməsi üçün perspektiv mövcuddur. Amma hələlik bu baş vermir və ya bunu etmək istəmirlər. Bəlkə də burada müəyyən siyasi məqsədlər güdürlər. İqtisadi baxımdan maraq göstərsələr də, siyasi baxımdan bu marağı nümayiş etdirmirlərsə, bu artıq tərəflər arasında gərginliyin davam etməsinə səbəb olur.

Düşünürəm ki, Azərbaycanın haqlı xarici siyasət mövqeyi Avropa İttifaqı tərəfindən qəbul edilməlidir. Artıq regionda münaqişənin bitdiyini, xüsusilə Fransa qəbul etməli, bu istiqamətdə tərəflərə dəstək verməli və münasibətlərin inkişafına töhfə verməlidir. Yəni Avropa İttifaqı daxilindəki bəzi qüvvələrin mövqeyi bütün təşkilatı Azərbaycana qarşı yönəltməməlidir”.

*Günel Fərzəliyeva*



FELYETON

# Çöldəkindən yox, içəridəkindən...

***Deyəndə ki, çoxlarımız geridə qalmışıq, məni qınayırlar ki, sən özün geridə qaldığın üçün müasirliyi görə bilmirsən. Dedim axı necə edim ki, özümə bir çəki-düzən verim, mən də müasirləşim, öndə olanların cərgəsinə qoşulum. Fikirləşdim ki, gözlərimi dörd açmalıyam bundan sonra. Gör-götür dünyasıdır. Baxım, görüm, nə görürəm?..***

Şənbə günü metroda qatara girən kimi gözlərimi dörd açdım ki, bu müasirliklərdən bəlkə bir-ikisini əxz edəm. Baxdım ki, qarşımda bir ana, bir də 5-6 yaşında olan balası əyləşib. Ana özündən razı, müasirliyi ilə ətrafdakılara meydan oxuyan biri idi. Hələ onu da düşündüm ki, görən bunun metroda nə işi var, yoxsa bizim kimi onun da maşını yoxdur, ya da ki, şəhərdəki ”probkadan” cana gəlib yerin üstündən imtina edib, altına girib.

Nə isə, uzun sözün qısası, bu ana-balanın hər birinin əlində iri bir smartfon var idi. Uşaq səsli-küylü bir oyun oynayırdı. Ana da telefonda elə məşğul idi ki, başını qaldırıb ətrafa nədir, uşağına da aradabir baxmırdı. Birdən uşağın əli nəyəsə toxundu və yəqin ki oyun itdi. Anasını dümsüklədi. Ana da uşağın üzünə belə baxmadı. Çiyinlərindən qırqovul kimi yapışıb, o tərəfindən götürüb bu tərəfinə qoydu. Yox, qoymadı, çırpdı və ”əşi, əl çək də”,- deyərək elə ucadan bir səs çıxardı ki, hamı çönüb onlara baxdı.

Uşaq da qəfil zərbədən elə bil ”zıq” elədi və səsini kəsdi. Düzdür, yenə telefonda nəyəsə baxırdı. Amma qorxudan ta anadan heç nə soruşmadı.

Ananın da qaş-qabağı yernən gedir. Özü başdan-ayağa ağappaq geyinsə də, deyirsən bəs, Qara dənizdə gəmiləri batıb. Elə bu zaman qatar dayandı. Ana uşağın qolundan yenə qırqovulsayağı dartıb qatarın qapısından bayıra atdı.

Dedim bax, bu da mənim əməlim. Saki gözlərimi dörd açmışam, gördüyümə bax. Düzü, gördüyüm mənzərə heç xoş olmadı. Nə deyirsiniz, mən də müasir olmaq üçün belə edim? Azyaşlı uşağın əlinə telefon verib müasir ailə modeli yaradım? Verə bilmərəm. Birini də özüm alım əlimə, uşaqdan xəbərim olmasın? Edə bilmərəm. Uşaq bir söz soruşanda onu ora-bura çırpım? Yox, əsla edə bilmərəm. Özüm də başdan-ayağa ağappaq geyinim ki, mən müasirəm, dəblə ayaqlaşıram, hamıdan fərqliyəm? Bunu da edə bilmərəm. Çünki gözümlə gördüm ki, ağ necə də tez ləkə götürür.

Yox, yox ay bacılar, qardaşlar, məni anlayın, başa düşün. Mən çöldəki müasirlikdən yox, içəridəkindən istəyirəm. İçərini də görə bilmədiyim üçün, deməli, mən həmişə geridə qalmış olacağam.

*Mətanət Məmmədova*



# Dr.Aynur Səfiyeva Koreyanın Seul şəhərində keçirilən ICRS 2025 tədbirində təqdimatla çıxış edib

Mərkəzi Gömrük Hospitalının Ümumi Cərrahiyyə şöbəsinin ümumi cərrahı, tibb elmləri doktoru Dr. Aynur Səfiyeva 29-31 avqust 2025-ci il tarixlərində Koreyanın Seul şəhərində keçirilən Beynəlxalq Kolorektal Tədqiqat Sammitində ölkəmizi uğurla təmsil edib. Dünyanın 36 ölkəsindən tanınmış mütəxəssislərin iştirak etdiyi nüfuzlu tədbirdə Dr. Aynur Səfiyeva ”Anal çatlarda botoks müalicəsi” mövzusunda elmi məruzə ilə çıxış edib.



Onun təqdimatında anal çatların müasir müalicə üsulları, botoks tətbiqinin klinik nəticələri və pasiyentlərin həyat keyfiyyətinə təsiri ilə bağlı aparılan araşdırmalar diqqətə çatdırılıb. Konfrans çərçivəsində aparılan elmi müzakirələr zamanı Dr. Aynur Səfiyevanın məruzəsi iştirakçılar tərəfindən yüksək maraqla qarşılanıb. Onun təqdim etdiyi praktiki nəticələr Avropa, Asiya və Amerika ölkələrindən gəlmiş cərrahlar arasında təcrübə mübadiləsinə geniş imkan yaradıb. Dr. Aynur Səfiyevanın Seulda təqdim etdiyi məruzə beynəlxalq tibb ictimaiyyəti ilə əməkdaşlığın möhkəmlənməsinə də mühüm töhfə olub. Onun elmi çıxışı ölkəmizin müasir müalicə metodları sahəsində əldə etdiyi nailiyyətlərin qlobal miqyasda paylaşılmasına imkan yaradıb.

# Vaşinqtondan sonrakı Ermənistan

*Erməni siyasətçilər Trampın mühüm beynəlxalq prinsipi pozduğunu deyirlər*

***ATƏT-in Minsk qrupu tarixə qovuşdu, həm yaddaşlarda utancverici imiclə qalaraq. Dünyanın 3 nəhəng gücü həmsədrlik etdikləri təşkilatla, beynəlxalq norma və prinsiplərə söykənərək işğalçı Ermənistanı geri addım atmağa məcbur edə bilmədilər. Yaxud etmək istəmədilər. Öz nüfuzlarını qondarma dövlətin qondarma iddialarına qurban verərək 30 il bu ləkəni üzərlərində gəzdirdilər, çirkabı təmizləmək üçün çoxsaylı görüşlərdə İrəvanın işğal siyasətinə şərik olduqlarını sübuta yetirdilər.***



"ABŞ prezidenti Donald Tramp ATƏT-in Minsk qrupunun ləğvi prosesinin başlanmasına razılıq verməklə, gücdən istifadə etməmək kimi ən mühüm prinsipin pozulmasına töhfə verib. Bunu Ermənistanın keçmiş baş naziri Xosrov Arutyunyan ATƏT Nazirlər Şurasının sentyabrın 1-dən Minsk qrupunun buraxılmasına başlamaq barədə qərarını şərh edərkən deyib. Qeyd edək ki, sentyabrın 1-də ATƏT Nazirlər Şurası ATƏT-in Minsk Qrupunun və əlaqədar strukturların bağlanması barədə qərar qəbul edib. Eyni zamanda, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Minsk Qrupunun əvvəllər qəbul etdiyi bütün qərarlar etibarsız sayılır. Ermənistan və Azərbaycanın xarici işlər nazirləri avqustda Vaşinqtonda Tramp-Əliyev-Paşinyan üçtərəfli görüşündən sonra strukturun ləğvi tələbi ilə ATƏT-ə müraciət ediblər.



1992-ci ildə ATƏT-in Minsk qrupunun yaradılmasının başlanğıcında dayanan Ermənistanın keçmiş baş naziri iddia edir ki, hətta Minsk prosesinin ləğvi də Qarabağ məsələsinin nəhayət bağlanması demək olmayacaq. O, "Azərbaycanın Qarabağda beynəlxalq səviyyədə tanınmış münaqişəni müharibə, soyqırım və əhalinin məcburi deportasiyası" yolu ilə həll etdiyinə diqqət çəkib. Bu isə güc tətbiqi və ya güc tətbiq etmə hədəsini istisna edən beynəlxalq prinsipin pozulmasıdır. "Heç bir münaqişə kobud gücdən istifadə nəticəsində həll olunmuş hesab oluna bilməz, o cümlədən soyqırım hərəkətləri. Bu gün bir çox dövlətlər, o cümlədən ATƏT-dəki dövlətlər bu və ya digər səbəbdən bu və ya digər səbəblərə görə bu vəziyyətə göz yumurlarsa, bu, münaqişənin həll olunduğu anlamına gəlmir. Üstəlik, mən dərindən əminəm ki, gec-tez, dünyada tektonik nizamın formalaşmasından sonra böyük güclərin formalaşmasından sonra qlobal qüdrət yenidən özünə qayıdacaq, yenidən "Artsax məsələsi" onların maraqlarına uyğun olacaq", - Arutyunyan hesab edir.

Sabiq baş nazir deyir ki, "nə qədər ki, dünyada millətlərarası münaqişələrin "güc yolu ilə həlli mümkün deyil" prinsipi qüvvədədir, ATƏT-in Minsk qrupunun missiyası tükənmiş hesab edilə bilməz. Nümunə olaraq Arutyunyan Kipr məsələsini, eləcə də Türkiyənin hələ də qurtula bilmədiyi "erməni soyqırımı" problemini göstərib. ATƏT-in Minsk Qrupu 1992-ci ildə yaradılıb və Rusiya, Fransa və ABŞ-ın sədrliyi ilə fəaliyyət göstərir. 2022-ci ilin aprelində Rusiyanın xarici işlər naziri Sergey Lavrov Paris və Vaşinqtonun Moskva ilə qrup çərçivəsində əməkdaşlıqdan imtina etdiyini, "bu formatda ünsiyyət qurmayacaqlarını" bəyan edib.

Azərbaycan Prezidenti İlham Əliyev keçirdiyi görüşlərdə, müxtəlif platformalarda çıxışı zamanı Ermənistandakı revanşistlərin Qarabağı yenidən ələ keçirmək arzusunda olduqlarını, bunu üçün İrəvan küçələrində təşkil etdikləri hakimiyyətə qarşı etiraz aksiyalarının arxasında yeni müharibə iddiasının dayandığını xüsusi olaraq qeyd edib. Münaqişə olduğu üçün Minsk qrupu var idi, bu gün isə Qarabağ problem artıq həll edilib, torpaqlar əsl sahibinə qaytarılıb. Ona görə də nə ATƏT-ə, nə də onun törəmə Minsk qrupuna heç bir ehtiyac qalmayıb. Təşkilatın ləğvi ilə bağlı müraciəti avqustun 8-də Vaşinqtonda Ermənistan və Azərbaycanın xarici işlər nazirləri imzalayıblar. Bu, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına dair birgə bəyannamənin tərkib hissəsi olub. Təşkilat 2025-ci ilin dekabrına qədər fəaliyyətini tamamilə dayandıracaq.

## Paşinyan Vaşinqtonla Pekin arasında

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq Araşdırmalar İnstitutunun aparıcı elmi işçisi Sergey Markedonov Ermənistan və Çinin strateji tərəfdaşlıq səviyyəsində yaranması və onun əhəmiyyətini təhlil edib. "Çin və Ermənistan arasında münasibətlərin yeni səviyyəsi onu göstərir ki, Nikol Paşinyanın üstünlüklərini sırf qərbyönümlü kimi şərh etmək tamamilə düzgün deyil. Bəli, Ermənistan Nazirlər Kabinetinin rəhbəri Qərb vektoruna xüsusi diqqət yetirir. Və onun Belidə avqust görüşündə iştirakı buna əyani sübutdur. Amma Vaşinqtondan sonra Paşinyan İrəvanda İran prezidentini qəbul edib. İndi özü də Çinə gedib", - politoloq Telegram kanalında yazır.

Ekspert hesab edir ki, Ermənistanın baş nazirinin hərəkətlərini bir növ "Şərqə dönüş" kimi şərh etmək tələsik olardı. "Daha doğrusu, Nikolay Vovaeviçin "Dünyanın kəsişməsi" uğrunda mübarizəsi onun baxışlarının və konstruksiyalarının müəyyən eklektizmini, eyni zamanda bütün dünya güc və təsir mərkəzlərinə yaxın olmaq istəyini əks etdirir. Bu da strategiyanın çatışmazlığını ortaya qoyur. Təbii ki, tamamlayıcılıq xoş və faydalı bir şeydir, ancaq o zaman ki, o, sizinlə böyük güclər arasında böyük rəqabət gətirir, ya da sizin qarşıdurmalarınızı cəlb etmir", deyə siyasətçi qeyd edib. Markedonov bildirib ki, Pekin və İrəvan tezliklə "Bir kəmər, bir yol" təşəbbüsünü "Dünyanın kəsişməsi" ilə praktiki olaraq necə birləşdirəcəkləri sualına cavab verməli olacaqlar.



## Zəngəzur ermənilərsiz qala bilər

Ermənistanın Zəngəzur (Sünik) bölgəsi uzunmüddətli perspektivdə ermənilərsiz qala bilər, Ermənistan Baş Qərargahının keçmiş rəisi Movses Akopyan jurnalistlərə bildirib. General Vaşinqtonda Bakı ilə əldə olunan razılaşmaları təhlükəli hesab edir, çünki Azərbaycan çox usta gedişlər edir, son nəticədə Ermənistanın cənub bölgəsini ələ keçirə bilər. Onun sözlərinə görə, "Bakı hərbi eskalasiya ideyasından əl çəkməyib və nəzərə alsaq ki, Azərbaycanın birincisi, Zəngəzurdan (Sünik - ermənicə) keçən marşrut üzrə öz vətəndaşlarının gediş-gəlişinə nəzarət etmək, ikincisi, sonradan Ermənistan vasitəsilə çoxlu sayda azərbaycanlı həmin ərazilərdə yerləşdirmək üçün şərait yaratmaq imkanı var. "Zəngəzur bölgəsinin aqibəti belə olacaq: əvvəlcə orada hər şey yaxşı kimi görünəcək, sonra isə ermənilər qalmayacaq", - deyə general əlavə edib və ilkin investisiyalara və iqtisadi həyatın canlanmasına eyham vurub.

Xatırladaq ki, avqustun 8-də Vaşinqtonda Ermənistan, ABŞ və Azərbaycan liderləri münaqişənin sülh yolu ilə həlli ilə bağlı birgə bəyannamə imzalayıblar. Sənədə əsasən, Ermənistan ABŞ-a 99 il müddətinə marşrutun inkişafı üçün eksklüziv uzunmüddətli hüquqlar verəcək, bu marşrut üzrə Azərbaycanın Naxçıvanla quru əlaqəsi qurmağı nəzərdə tutur. Amerika tərəfi torpaq sahəsini infrastruktur və idarəetməyə cavabdeh olan konsorsiuma subicarəyə verməyi planlaşdırır.




## Aİİ-də bazar, pul, enerji və real əlaqələr, Aİ-də isə

Rəqəm və faktlarla silahlanmış "Sosial Ədalət Uğrunda" (Ermənistan) siyasi partiyasının lideri Arman Qukasyan növbəti dəfə Paşinyanın avrointeqrasiya bəyanatlarını təxribat hesab edib. Paşinyan bu yaxınlarda bəyan etdi ki, Ermənistan eyni anda həm Avrasiya İqtisadi İttifaqında, həm də Avropa Birliyində ola bilməyəcək. Onun sözlərinə görə, seçimin qaçılmaz məqamı gələndə ölkə xalqın iradəsi və vəziyyətin təhlili əsasında müvafiq qərar qəbul edəcək. Amma gözəl siyasi düsturlara yox, real rəqəmlərə və faktlara nəzər salsaq, aydın olar: Ermənistanın real seçimi yoxdur. İqtisadiyyat, logistika və sosial həyat çoxdan Aİİ və hər şeydən əvvəl Rusiya ilə bağlıdır. Bu, sözün əsl mənasında hər bir göstəricidə özünü göstərir.

2024-cü ildə Ermənistanın Rusiya ilə ümumi ticarət dövriyyəsi təxminən 12 milyard dollar təşkil edib. Bu, Ermənistanın Avropa İttifaqı ilə bütün ticarətindən bir neçə dəfə çox olan rekorddur. Aİ ilə həmin il dövriyyə cəmi 2,3-2,7 milyard dollar olub, yəni, demək olar ki, beş dəfə az. Ermənistanın ixracında Aİ-nin payı cəmi 4,7% təşkil edir, halbuki Rusiya tək başına bütün Avropa İttifaqının cəmindən daha çox erməni malını qəbul edir. İdxalda da boşluq var: Ermənistan Rusiyadan 9,2 milyard dollar, Aİ-dən isə təxminən 2 milyard dollar dəyərində məhsul idxal edib. Bu rəqəmlər aydın şəkildə göstərir ki, Avrasiya istiqaməti real bazardır, Avropa istiqaməti isə hələ də simvol və uzaq perspektivdir.

Pul köçürmələri amili də az əhəmiyyət kəsb etmir, onsuz Ermənistan iqtisadiyyatı sadəcə mövcud ola bilməz. Rəsmi məlumatlara görə, 2024-cü ildə bank sistemi vasitəsilə Ermənistana təxminən 5,8 milyard dollar daxil olub ki, bunun da "xalis daxilolma" 1,5 milyard dollar təşkil edib. Amma ən önəmlisi bu transferlərin strukturudur. Daxil olan vəsaitlərin ən böyük payı Rusiyadandır: 2024-cü ilin ilk 11 ayında onlar təxminən 3,2 milyard dollar təşkil edib. Bu pul bütün daxili tələbatın demək olar ki, dörddə birinə bərabərdir, on minlərlə ailəni saxlayır və kiçik biznesin sağ qalmasına şərait yaradır. Aİ Ermənistana bu baxımdan müqayisəli heç nə vermir.

Enerji başqa bir əsas nümunədir. Ermənistan Rusiya qazını hər min kubmetr üçün sabit qiymətlə 165 dollara alır. Bu, 2024-cü ildə qazın 350-400 dollara çatdığı Avropa bazarında orta qiymətin yarısıdır. Fərq öz sözünü deyir: Rusiya qazı olmasaydı, Ermənistanda istilik və elektrik enerjisi tarifləri bir neçə dəfə artar, hər bir evə və bütün sənayeyə zərbə vurardı.

Bazar ölçüsü baxımından Aİİ-nin 180 milyondan çox istehlakçısı, vahid ticarət qaydaları və gömrük maneələri yoxdur. Bu o deməkdir ki, erməni malları heç bir əlavə rüsum və mürəkkəb prosedurların olmadığı nəhəng bazara sərbəst daxil olur. Aİ nəinki iqtisadiyyatda və siyasətdə genişmiqyaslı islahatlar tələb edir, həm də Ermənistanı sırf coğrafi maneə ilə qarşı-qarşıya qoyur: ölkənin Aİ ilə ümumi sərhədi yoxdur. Bu o deməkdir ki, Avropaya hər hansı ixrac avtomatik olaraq Rumıniya və ya Bolqarıstan kimi dünya okeanına birbaşa çıxışı olan ölkələrinkindən baha başa gəlir. Erməni mallarının onsuz da rəqabətdə çətinlik çəkdiyi şəraitdə bu fərq Avropa istiqamətini praktiki olaraq gəlirsiz edir.

Beləliklə, rəqəmlər və faktlar öz sözünü deyir. Bu gün Rusiya və Aİİ Ermənistanı ehtiyac duyduğu hər şeylə təmin edir: yüz minlərlə miqrant üçün iş yerləri və milyardlarla dollar pul köçürmələrindən tutmuş ucuz qaz və nəhəng satış bazarına qədər. Aİ əsasən siyasi perspektiv və gözəl şüar olaraq qalır, bunun arxasında müqayisə edilə bilən iqtisadi faydalar və ya real logistik baza yoxdur. Nəticə sadə və birmənalıdır: Ermənistan timsalında Aİİ və Aİ-ni müqayisə etmək mənasızdır. Sinxron üzvlük mümkün deyil, yəni "seçim" söhbəti daha çox siyasi oyunun elementidir. Real dilemma yoxdur, çünki Ermənistanın maraqları artıq onun iqtisadiyyatının strukturu ilə müəyyən edilib. Aİİ-nin tərəfində bazar, pul, enerji və real əlaqələr var. Aİ-nin yalnız uzaq perspektivi və əldə edilməsi çətin olan standartlar var. Ermənistanın yaxın illərdə seçimi varmı?

## Bu arada...

*Bild: Rusiya almazları Ermənistan vasitəsilə Aİ-yə daxil olur*

Bild yazır ki, Aİ Vladimir Putinə təzyiq göstərmək üçün Rusiyaya qarşı 18 sanksiya paketi təqdim edib, lakin Kreml məhdudiyyətlərdən yan keçməyin yollarını axtarır. "2024-cü il yanvarın 1-dən Rusiya almazlarının Aİ-yə idxalı qadağan edilib. ABŞ, Kanada və Böyük Britaniya isə hələ 2022-ci ildə Alrosa konserninə qarşı sanksiyalar tətbiq edib (bütün Rusiya almaz istehsalının 97%-nə nəzarət edir). Sanksiyalardan yan keçmək üçün Alrosa bir qabıq şirkəti olan PBK qurub, Arctida layihəsinin araşdırmaçı jurnalistləri tapıblar. Onlar işlərinin nəticələrini Bild-ə təqdim ediblər. Formal olaraq, PBK əvvəllər Alrosa-da işləmiş bir qadına məxsusdur. Şirkət rus almazlarının mənşəyini gizlətmək üçün yaradılıb.

Sxem belədir: əvvəlcə Ermənistana kobud almazlar göndərilir. Orada daşlar cilalanır və formal nöqteyi-nəzərdən rus mənşəyini itirir - indi onlar Ermənistan istehsalı olan mallardır. Bundan sonra almazlar Hindistan, BƏƏ və ya Çinə satılır və nəticədə satış zənciri birbaşa Aİ almaz sənayesinin ən böyük mərkəzi olan Antverpenə aparır. Antverpen sənaye ittifaqı AWDC 2024-cü ilin yanvar ayından etibarən Rusiya qiymətli daşları ilə ticarət etmədiyinə əmin olsa da, Arctida araşdırmasına görə, iş davam edir. Beləliklə, 2023-cü ilin yanvarından 2024-cü ilin martına qədər PBK 250 milyon avro dəyərində brilyant ixrac edə bilib. Bu gəlirlər Rusiyada vergiyə cəlb edilir və bununla da Putinin hərbi xəzinəsini doldurur.

Almaz sanksiyalarından yan keçmək üçün boşluq Avropa İttifaqının özü tərəfindən buraxılıb. İllərdir ki, mədəndən satışa qədər daşların mənşəyini izləyə bilən blokçeyn izləmə sisteminin tətbiqi elan edilmişdi, lakin indiyə qədər bu üsulla yalnız çəkisi 0,5 karatdan az olan daşlar izlənilib. Hakimiyyət bu yaxınlarda elan etdi ki, bütün qiymətli daşlar yalnız 2026-cı il yanvarın 1-dən izlənəcək.

**V.VƏLİYEV**



## İftixar Piriyev - 65

# Bir ömrün sənət dünyası

***Tanrının bəşər övladına verdiyi ömür payı nurlu, cəfakeş, istedadlı insanların həyatının zənginləşməsinə və yaranmış çalarlıqdan cəmiyyətə, sənətə xidmətin əxz olunmasına gətirib çıxarır. Bir ömrün arxasından görünən illərin hər zamanı insanın yaşam tərzinin naxışıdır. Təbii ki, ziyalı ömrü yaşayan insanlar, məhz həyat amalı ilə cəmiyyətin, yaşadığı zamanın tələbinin vəhdətindən doğan gerçəklikləri birləşdirib, daim axtarışlarla ömürlərinin mahiyyətinə bir əlvanlıq bəxş edirlər.***

Ömrə zinət gətirən 65 yaş ucalıq rəmzidir, necə deyərlər bir hesabat dövrüdür, 65 baharı yaşayan bir ömrün - yaşanılan illərin təhlilidir. 65 yaşını qeyd edən İftixar Piriyev də bu zaman məsafəsində sənət dünyasına yazdığı zəngin vərəqlərin səhifələnməsinə bir ehtiyac duyulur. Bu ömür sənət, yaradıcılıq yolunda heç də axtarışsız, əzab-əziyyətsiz keçməmişdir. Daim bədii təfəkkürdən doğan yaradıcılıq irsi çoxşaxəliyi, mövzu aktuallığı





ilə fərqlənən zəngin nümunələrlə diqqəti cəlb etmişdir. Bu gün onun yaradıcılıq, sənət dünyasının izinə düşüb, keçdiyi şərəfli, zəngin zamanı bir daha vərəqləmək qərarına gəldik. İftixar Fərhad oğlu Piriyev... Azərbaycan teatr və kino aktyoru, teatr rejissoru və ssenaristi, İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru. 1960-cı ildə Gürcüstan Respublikasının Qaraçöp mahalında anadan olan İftixar Piriyev 1977-ci ildə orta məktəbi bitirdikdən sonra elə həmin il Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə qəbul olunub. Ali təhsilini başa vurduqdan sonra Akademik Milli Dram Teatrında aktyor kimi fəaliyyətə başlamışdır. Burada o, müxtəlif səpgili və xarakterli onlarla obraz yaratmışdır.

Belə ki, Akademik Teatrın səhnəsində Edqar (V. Şekspir, "Kral Lir"), Əlibəy (S. Vurğun, "Vaqif"), Niftalı (V. Səmədoğlu, "Yayda qartopu oyunu"), Vəliqulu (Anar, "Sizi deyib gəlmişəm"), Əkbər, Xəzər (N. Xəzri, "Mirzə Şəfi Vazeh", "Gecə döyülən qapılar"), Bayandur (İ. Əfəndiyev, "Büllur sarayda"), bədii film və televiziya tamaşalarında Sərvər (Ə. Əylisli, "Ürək yaman şeydir"), Əsgər (S. Budaqlı, "Közərən evin işıqları"), Əbdül (Ə. Hacızadə, "İtkin gəlin"), Vədad (R. N. Güntəkin, "Dodaqdan qəlbə"), Aslan (B. Vahabzadə, "Yağışdan sonra"), Nofəl (A. Rəhimov, "Canavar balası"), Şef (A. Rəhimov, "Qırmızı qar") kimi obrazlar aktyorun yaradıcılıq bioqrafiyasını təşkil edir. O, müxtəlif ədəbi-bədii verilişlərdə çıxış etmiş, "Ozan" folklor toplusunun aparıcısı olmuşdur.

1990-cı ildə özəl olaraq Azərbaycan Milli "Dastan" Teatrını yaratmış, onun direktoru və bədii rəhbəri kimi fəaliyyət göstərmişdir. "Yaşadığım bu ömür", "Nə qəribə yuxuymuş" adlı şerlər kitabının, Ulu Öndər Heydər Əliyevə həsr olunmuş "Böyük Turanın Himni" himn-poemasının, "Ucal", "Könüllərə dolan nur" şeirlərinin, "Dan yeri söküləndə", "Körpü", "Məngənə və ya Kor Aşığın işığı" pyeslərinin müəllifidir. "Dan yeri söküləndə" pyesi İrəvan Dövlət Azərbaycan Dram Teatrı və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının müştərək layihəsi əsasında tamaşaya hazırlanmışdır.

1998-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən iki il müddətinə Tiflis Azərbaycan Dövlət Dram Teatrının bərpası ilə bağlı Gürcüstan Respublikasına ezam olunmuş, Gürcüstan Mədəniyyət Nazirliyinin müvafiq əmri il bərpa rəhbəri təyin olunmuşdur.

### İRƏVANA DÖNÜŞÜNƏ QADAĞA QOYULDU

2000-ci ildən isə İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru olan İftixar Piriyevin bu sənət məbədi həyatında silinməz izlər buraxıb. Qələmə aldığı "İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixi" adlı elmi, tarixi, publisistik monoqrafiyasında şahidi olduğu bütün tarixi anlar öz əksini tapır. "1988-ci ildən alovlanmağa başlayan, bütün Qərbi Azərbaycanı başına alan erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə nəticəsində İrəvan Azərbaycan Dram Teatrı əmlakı əlindən alınmaqla Ermənistan SSR Mədəniyyət Nazirliyinin məqsədli şəkildə, məcburi göndərişi ilə Neftçala rayonuna qastrol səfəri adı ilə, birdəfəlik olaraq, sözün əsl mənasında sürgün edildi. Sürgün ona görə deyirəm ki, İrəvana dönüşünə qadağa qoyuldu və bələliklə başı bəlalı bu fədakar sənət ocağı 1989-cu ildən Azərbaycanın paytaxtı Bakı şəhərinə deportasiya olundu", - deyə sənətkar müsahibələrinin birində bildirib.

O çətin illərdə teatrın məskunlaşması, acı həyat yaşamış yaradıcı kollektivin soyuq otaqlarda hazırladıqları tamaşalar onun səhifələrində silinməz bir tarixdir. 2000-ci ildən başlayaraq teatr təməlli yaradıcılıq prosesinə start verdi. Özünün tarixi-nümunəvi yaradıcılıq ənənələrini bərpa etmiş oldu. Görkəmli teatr xadimləri teatra cəlb olundu və onlarla yaradıcılıq ünsiyyəti qurdu. Müxtəlif mövzulu əsərlərin ərsəyə gətirilməsinə, müxtəlif səpkili tamaşaların hazırlanmasına nail oldu və nəhayətdə yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün bu və ya digər uğurlar İftixar Piriyevin teatra rəhbərliyi dövründə reallaşdı. Onun sözlərinə görə, ərsəyə gətirdiyi tamaşalarla və həyata keçirdiyi yaradıcılıq səfərləri ilə öz arxivini zənginləşdirən teatr məskunlaşdığı məkanın qeyri-qənaətbəxş olmasına, tamaşalar hazırlamaq üçün şəraitsizlikdə çalışmasına rəğmən, daim dinamik fəaliyyət prinsipini qoruyub saxlamaqla və uğurlu sənət inciləri ərsəyə gətirməklə, həmin inciləri, əsasən respublika miqyaslı qastrol səfərlərində geniş təbliğ edərək sanballı sənət ocağı olduğunu isbata yetirməsi nəticəsində böyük nailiyyətlər əldə etdi

Bunun nəticəsidir ki, İrəvan Teatrı 2007-ci ildə Prezidentin məlum Sərəncamı ilə 125 illiyinin təntənəli şəkildə keçirilməsi zirvəsinə yüksəldi, həmin dövrdə kollektivin bir qrup sənətkarları Dövlət tərəfindən fəxri adlarla təltif olundular.

İftixar Piriyev "125 illik yubileyimiz həm Azərbaycanda, həm də Türkiyə Cümhuriyyətinin Manisa, İzmir, Niğdə şəhərlərində dahi Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" tamaşası əsasında "Məşədi İbadın düyünü" və müəllifi olduğum "Müstəqil vətənin memarı" tamaşa-kompozisiyası ilə qeyd edildi. Qastrol günlərində Niğdə valisi əslən Qərbi Azərbaycandan olan Gümrüz Bədər Niğdə şəhərindəki "Qızıl alma" parkının adını dəyişdirərək, "Heydər Əliyev parkı" elan etdi və parkın uca yerində Ulu öndərlər Mustafa Kamal Atatürk və Heydər Əliyevin abidələrinin ucaldılması qərarını verdi. Ən sevindirici hadisə isə 125 illik yubiley münasibəti ilə Binəqədi rayonu ərazisində yerləşən bina ilə təmin olunmağımızdır", - deyə bildirib.

### ULU ÖNDƏRİN BƏDİİ OBRAZI YARADICILIQ TALEYİNƏ YAZILIR

Teatr onun həyatının ayrılmaz hissəsinə çevrilib. Rəhbərlik etdiyi İrəvan Dövlət Azərbaycan Dram Teatrının repertuarında Ulu Öndər Heydər Əliyev obrazının xüsusi yeri var. Heydər Əliyevin bu teatra olan münasibəti və Heydər Əliyev obrazının teatra gəlməsi. "Qurtuluş dastanı"... Ümummilli Lider Heydər Əliyev fenomeni İrəvan Teatrının kollektivi üçün sönməz ilham qaynağı və həyat eşqi verən bir güc, qüdrət mənbəyidir. "Məhz İrəvan Teatrının kollektivindəki bu sönməz və tükənməz məhəbbət, Ümummilli Liderimizin bədii obrazını öz səhnəsində əbədi yaşatmaq eşqini qoruyub saxlamaq üçün İrəvan Teatrına daim stimul verir. Bu stimul və sevgi ilə ulu öndər Heydər Əliyevin 90 illiyi yubileyinə həsr olunmuş, Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə hazırlanmış "Qurtuluş dastanı" tamaşası 10 may 2013-cü ildə Akademik Milli Dram Teatrının səhnəsində oynanıldı. Tamaşa müstəqillik tariximinzə, bu tarixin ən gərgin dövrlərinə, bu tarixin ən parlaq səhifələrini yaradan Heydər Əliyevin siyasi fəaliyyətinin fenomenal cəhətlərinə həsr olunmuşdur. "Qurtuluş dastanı"ndan əvvəl biz Aqşin Babayevin "Xilaskar" əsərini tamaşaya hazırlamışıq. Daha sonra isə görkəmli şair-dramaturq Hidayətin "Burdan min atlı keçdi", müəllifi olduğum "İşıqlı, nurlu sabah", "Nurlu ömrün anları", "Qalx ayağa Azərbaycan!", "Qurtuluş" tamaşalarında ulu öndər Heydər Əliyevin bədii obrazı ilə istər respublika miqyasında, istərsə də respublikadan kənarda tamaşaçıların görüşünə getmişik. Hər birində də böyük rəğbət və sürəkli alqışlarla qarşılanmışıq" - deyə müsahibələrinin birində bildirib.

İrəvan Teatrında 2009-cu ildə ilk dəfə "Xilaskar" tamaşasında Ulu öndərimiz Heydər Əliyevin bədii obrazını yaradır. Ondan sonra hazırlanan bütün əsərlərdə Ulu Öndərimizin bədii obrazı yaradıcılıq taleyinə yazılır. Hidayətin "Burdan min atlı keçdi" dramında isə Ulu öndərin obrazı Heydər Əliyevçilik - Azərbaycançılıq ideyası ətrafında öz bədii mücəssiməsini tapır. Tale belə gətirdi ki, bu tamaşada da Ulu öndərimizin bədii obrazının yaradıcısına çevrilib.

İrəvana dönmək eşqini hər zaman özündə yaşadan İrəvan Teatrı heç vaxt təkcə sənət məkanı kimi fəaliyyətini məhdudlaşdırmamışdır, həm varlığı ilə, həm də yaratdığı vətənpərvər ruhlu nəhəng tamaşalarla, torpaqlarını zəbt etmiş və onu isti yurd-yuvasından didərgin salmış düşməninə qarşı qəhrəmancasına mübarizə mövqeyində dayanmışdır. Bu mövqe İrəvan Teatrı üçün hər zaman prioritet məsələ kimi aktivdir, - deyir İftixar Piriyev: "Hazırda kollektivimizdəki bu ruh bizi daim motivasiya edir".

Qərbi Azərbaycan deyəndə qədim Azərbaycan torpağı İrəvan göz önünə gəlir. Dərələyəz, Zəngibasar, Vedibasar, Göyçə, Dərəçiçək, Qərbi Zəngəzur, Mehri, Ağbaba bölgələri. O yerlər bizi gözləyir. Qərbi Azərbaycana, İrəvana qayıdacağıq. İftixar Piriyev deyir ki, Qərbi Azərbaycanı özündə ehtiva edən, hazırda fəaliyyətini Bakıda davam etdirən yeganə sənət ocağı olan İrəvan Dövlət Azərbaycan Dram Teatrı öz varlığı və yaratdığı sənət nümunələri ilə "Qərbi Azərbaycanlıların Qayıdış Konsepsiyası"nın icrası kontekstində və tarixi ədalətin bərpa olunması yolunda aparılan geniş təbliğat işlərinin həyata keçirilməsi funksiyasının reallaşmasını təlqin edir. Prezident İlham Əliyevin qarşıya qoyduğu missiyanın yerinə yetirilməsi istiqamətində qocaman sənət ocağı - İrəvan Teatrı Qərbi Azərbaycan həqiqətlərini öz varlığında və fəaliyyətində yaşadır və gələcəyə daşıyır: "Azərbaycan üçün hazırda həyati əhəmiyyətli prioritet məsələ məhz əlbəttə ki, Qərbi Azərbaycana qayıdış məsələsidir. Azərbaycanlıların müxtəlif zamanlarda Qərbi Azərbaycandan zor gücünə çıxarılması və həmin ərazilərin erməniləşdirilməsi taleyimizin acı həqiqətləridir. Əzəli torpaqlarımıza qayıdış həllini gözləyən taleyüklü, ciddi problemdir. Biz, Azərbaycanın bugünkü inkişaf zamanında və siyasi meydandakı yüksək mərhələyə ucalmış mövqeyi istiqamətində özünün gələcək taleyini - yaradıcı fəaliyyətini İrəvanda davam edəcəyinə bir həqiqət kimi baxır və heç şübhə etmirik ki, belə gedişlə İrəvana dönüş həqiqəti öz həllini tapa biləcəkdir. İrəvan Azərbaycan Teatrı, əlbəttə ki, İrəvana qayıdacaq və yəqin ki, ilk sözümüz "Yaşasın Vətən!.. Vətən yaşasın!" ifadələri olacaq. İlk oynayacağımız tamaşa isə, qismət olsa, müəllifi olduğum "Ata vəsiyyəti" əsəri olacaq".

Arzuların çin olacağı gün lap yaxındadır. İftixar Piriyevi bu yubiley günündə ürəkdən təbrik edir və əzəli torpaqlarda neçə belə yubiley tədbirlərini böyük sevgi və coşqu ilə qeyd edəcəyik!

***Zümrüd BAYRAMOVA***

# “Azərbaycanın xarici siyasi ritorikası tamamilə fərqli formadadır”

*Hərbi ekspertdən mühüm açıqlama*

**“Azərbaycan ərazi bütövlüyünün bərpası istiqamətində 2023-cü ilə qədər, yəni antiterror əməliyyatına qədər addım-addım irəliləди və ilkin baza və bünövrə diplomatik, siyasi, iqtisadi münasibətlər zəminində formalaşdı. Bunu həm də Azərbaycanın dövlət suverenliyinin tam bərpası əməliyyatı da adlandırmaq olar”. Bu sözləri SİA-ya açıqlamasında hərbi-ekspert Ramil Məmmədli deyib.**

Onun sözlərinə görə, Azərbaycanın diplomatik uğurları 1993-cü ildən başlayaraq Azərbaycanın xarici ölkələrlə, dünyanın böyük gücləri ilə münasibətləri ən yüksək səviyyəyə qaldırılmasına gətirib çıxardı. Bu proses Azərbaycanın iqtisadi vəziyyətini yaxşılaşdırdı. Sonradan isə bölgənin və dünyanın maddi baxımından, maliyyə baxımından güclü ölkələri ilə birləşdi: ”Təbii ki, bu prosesdə Azərbaycanın ordusunun, Silahlı Qüvvələrinin güclənməsi ilə davam etdi və paralel olaraq Azərbaycan xalqı Silahlı Qüvvələrinin güclənməsi prosesində iştirak etdi və dövlətin bu istiqamətdəki siyasətinə öz dəstəyini verdi. Təbii ki, bunların hamısı Azərbaycanın ərazi bütövlüyünün bərpası, işğal altında olan ərazilərin, bölgələrin azad olunması məqsədi daşıyırdı.







Bu gün isə Azərbaycan öz ərazi bütövlüyünü təmin etməklə bu cür problemləri həll etmiş oldu. Biz görürük ki, Azərbaycanın xarici siyasi ritorikası tamamilə fərqli formadadır. Açıq şəkildə biz öz mövqeyimizi deyə bilirik, konkretləşdirə bilirik. Artıq siyasi manevrlərə ehtiyac yoxdur və ölkənin iqtisadi inkişafına zəmin yaradan bütün istiqamətli addımlar həyata keçirilir.

2020-ci ildə Vətən Müharibəsində qazanılan uğurlar, qələbə də məhz bu 1993-cü ildən başlayaraq addım-addım irəliləyən prosesin məntiqi davamı idi. Nəhayət 2023-cü ilin sentyabr ayında Azərbaycanın ərazi bütövlüyünün tam olunması, daha doğrusu separatçı quruluşun, separatçıların, terrorçuların, terrorçulardan təmizlənməsi - bu, Azərbaycan xalqının son 200 ildə əldə etmək istədiyi qələbə idi ki, nəhayət Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, onun komandası ilə bu proses yekunlaşdı.

Ümumiyyətlə, 2023-cü ilin sentyabr ayındakı antiterror əməliyyatı nəyi dəyişdi?

**1.** Azərbaycan öz ərazi bütövlüyünü tam bərpa elədi.

**2.** Separatizm ocaqları tamamilə ləğv olundu.

**3.** Terrorçular sıradan çıxarıldı, zərərsizləşdirildi.

**4.** Azərbaycana və azərbaycanlılara qarşı cinayət törətmiş şəxslərin bir qismi həbs olundu.

**5.** Ardınca həmin ərazilərin inkişaf mərhələsi başlandı.

Azərbaycan faktik olaraq bu gün dövrünün ən inkişaf etmiş, ən çevikləşmiş və güclü siyasi mövqeyə malik olan ölkə dövrünü yaşayır. Bütün bunlar dünya ictimaiyyətinin gözü qarşısında baş verdi və bu gün də həmin inkişaf prosesi davam edir. Yəni, antiterror əməliyyatı və Azərbaycan ərazilərinin tam olaraq ərazi bütövlüyünün həyata keçirilməsi, reallaşdırılması Azərbaycanın xarici siyasətində, diplomatik münasibətlərində mövqeyinin güclənməsinə, daxili problemlərin - iqtisadi, ticari problemlərin həlli istiqamətində fundamental köklərin atılmasına və ölkənin inkişafına zəmin yaradan işlərin həyata keçirilməsinə gətirib çıxardı. Biz bilirik ki, ötən dövrlər ərzində, yəni Qarabağ problemi, erməni separatizmi problemi Azərbaycan üçün olduqca ciddi problemlər yaradıb, ciddi çətinliklər yaradıb. Xarici ölkələrlə münasibətlərdə öz mövqeyini lazım gəldikdə yetərincə müdafiə etmək, tələb etmək, siyasi mövqeyini göstərmək kimi məsələlərdə müəyyən çətinliklər yaradıb”.

***Ziya Hikmətoğlu***



# Nəqliyyatda elektrik enerjisinə keçid ekoloji vəziyyəti yaxşılaşdırır?

“Elektrik nəqliyyatına keçid ekoloji vəziyyəti yaxşılaşdıra bilər. Elektrik nəqliyyatına keçid prosesi bir neçə səbəbdən ekoloji vəziyyəti yaxşılaşdırmağa kömək edə bilər”. Bu sözləri SİA-ya açıqlamasında ekoloq Sevil Yüzbaşeva deyib. Onun sözlərinə görə, bu nəqliyyat vasitələrində ilk növbədə işlənmiş qazların olmaması səbəbindən ekoloji vəziyyət əhəmiyyətli dərəcədə yaxşılaşır. Bu da havanın, xüsusilə şəhərlərdə çirklənmənin azalmasına və əhalinin sağlamlığının yaxşılaşması üçün şərait yarada bilər: ”Elektrikli nəqliyyat vasitələrinin işlənmiş qazları yoxdur, buna görə də onlar həm havanın çirklənməsini, həm də insanlarda tənəffüs yolları xəstəlikləri riskini əhəmiyyətli dərəcədə azaldır.

Elektrik nəqliyyatı istixana qazı emissiyalarının azalmasına səbəb olur. Adi daxili yanma mühərrikli avtomobillər (benzin və dizel avtomobilləri) iqlim dəyişikliyinə səbəb olan və əsas istixana qazı olan karbon dioksidi ($CO_2$) ətraf mühitə əhəmiyyətli miqdarda buraxır. Elektrik mühərrikləri ilə təchiz edilmiş elektrik skuterləri və e-velosipedlər istifadə zamanı ətraf mühitə karbon qazı ($CO_2$) buraxmır və bu da onları ənənəvi avtomobillərdən daha ekoloji təmiz edir.




Elektrik nəqliyyatı iqlim dəyişikliyinin yaratdığı mənfi təsirlərlə mübarizə aparmağa da kömək edir və neft məhsullarından asılılığın azalmasına səbəb olur. Elektrikli nəqliyyat vasitələri enerji mənbələrindən istehsal olunan elektrik enerjisi ilə işləyir ki, bu enerji müxtəlif yollarla, o cümlədən bərpa olunan enerji mənbələrindən əldə edilə bilər. Eyni zamanda bu nəqliyyat ətraf mühitin səs-küy çirklənməsinin də azalmasına səbəb olur. Elektrik nəqliyyat növlərini digər nəqliyyat vasitələrindən fərqləndirən mühüm amil aşağı səs-küy səviyyəsidir. Elektrik avtomobilləri praktiki olaraq səssiz çalışır ki, bu da şəhər sakinləri üçün daha rahat şərait yaradır.

Elektrikli nəqliyyat avtomobil yollarında sıxlığın aradan qaldırılmasına da təsir edir. Belə ki, elektrik nəqliyyatının yığcamlığı şəhər yollarındakı gərginliyi azaltmağa və tıxacların sayını minimuma endirməyə imkan verir ki, bu da ətraf mühitə müsbət təsir göstərir. Bununla belə, elektrik nəqliyyatına keçidin çatışmazlıqları da mövcuddur. Buraya istifadə olunmuş litium-ion batareyalarının utilizasiyası və təkrar emalı kimi problemlər daxildir. Bu batareyaların və akkumulyatorların utilizasiyası düzgün aparılmadıqda ətraf mühit üçün təhlükə yaradır, torpağı və suyu çirkləndirə bilən zəhərli maddələr əmələ gətirir.

Elektrikli skuterlər və elektrikli velosipedlər dünyanın bir çox ölkəsində artıq şəhər nəqliyyatının ayrılmaz hissəsinə çevrilib. İqlim dəyişikliyi və ətraf mühit məsələlərinə diqqətin artdığı bir dövrdə elektrik nəqliyyatının populyarlığı sürətlə artır, çünki onlar rahat və ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi kimi qəbul edilir, xüsusilə də sıxlıq və tıxacların olduğu şəhər mühitində. Həmçinin bu cür nəqliyyat vasitələri yollarda və dayanacaqlarda daha az yer tutur ki, bu da insanların sıx yaşadığı şəhərlərdə xüsusi əhəmiyyət daşıyır. Onların yığcamlığı şəhər yollarını yüngülləşdirməyə, tıxacların azalmasına və nəticədə həm insanlar üçün vaxt itkisinin, həm də ətraf mühit üçün istixana qazı emissiyalarının azalmasına səbəb olur”.

***Günel Fərzəliyeva***

MÜNASİBƏT

# Regiondakı güc balansı hər baxımdan tamamilə Azərbaycanın xeyrinədir



***Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində Vaşinqtonda Ermənistanla Azərbaycan arasında imzalanmış həmin tarixi razılaşma ilə bağlı fikirlərini açıqlayan Prezident İlham Əliyev Azərbaycanın sülh sazişinin ədalət prinsipləri əsasında imzalanmasının tərəfdarı olduğunu "Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik" sözləri ilə diqqətə çatdırmışdır.***

Ermənistanda dövlətlə din arasında gərginləşən vəziyyət siyasi partiyalar, hakimiyyətə gəlmək istəyən qüvvələr arasındakı çəkişmələrə də təsirsiz ötüşmür. Əhalisinin yaşayış səviyyəsinin xeyli aşağı düşdüyü, ermənilərin özlərinin etiraf etdikləri kimi süründükləri bu ölkə aclıq və səfalət içərisindədir. Korrupsiyalaşmış ölkə iqtisadiyyatının əsas resurslarının oliqarxların əlində cəmləşməsi, vergi sisteminə nəzarətin azalması, ölkədə yaranan hərc-mərclik sosial vəziyyəti daha da ağırlaşdırır. Aparılan sorğuların nəticələrindən də aydın olur ki, ölkə əhalisinin 87 faizi yaşayış səviyyəsindən narazıdır. Respondentlərin 28 faizi ölkəni tərk etmək istədiyini bildirib. Əhalinin təxminən 600 min nəfəri ərzaq təhlükəsizliyi problemindən əziyyət çəkir. Ermənistanda artıq etiraf edirlər ki, yaranan bu vəziyyət təkcə sosial yox, daha təhlükəli olan siyasi, iqtisadi və milli təhlükəsizlik məsələsidir. Saxta rəqəmlərlə ifadə olunan "iqtisadi artım" müəyyən təbəqələr arasında son dərəcə bərabərsizlik, ədalətsizlik prinsipləri əsasında bölünür.

Başqa ölkələrin təlimatlarına uyğun ölkədə qarışıqlıq salan sabiq prezidentlər arasında hakimiyyət uğqrunda intensivləşən mübarizənin daha da güclənməsi, gələn il keçiriləcək parlament seçkilərinə hazırlığın bəzən bağlı qapılar arxasında aparılması ölkə vətəndaşları tərəfindən ciddi narazılıqla qarşılanır. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Vaşintonda Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra daha da fəallaşan revanşistlərin iqtidara qarşı etirazları onsuz da çıxılmaz həddə çatan situasiyanı daha da ağırlaşdırıb.

Yaranan vəziyyətdən çıxış yolu kimi Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının vacibliyi ilə bağlı Paşinyanın sözlərini özlərinin məhvi kimi anlayan, mövcud vəziyyəti ictimaiyyətə qərəzli şəkildə çatdıran revanşistlərin bəziləri hələ də rəsmi Kremldən, bir başqa qrup isə Qərbdən təlimat gözləyir. Bu cür qarışıqlıqda Moskvaya meyvə-tərəvəz aparan yük maşınlarının geri qaytarılması, günlərlə gömrük məntəqələrində saxlanılan məhsulların xarab olması erməni iş adamlarına xeyli ziyan vurub. Ermənistan KİV-lərinin açıqlamalarına görə gavalı, şaftalı və üzüm yükləmiş yüzlərlə yük maşını geri dönməyə məcbur qalıb. Məhdudiyyətin səbəbini açıqlayan Rusiya tərəfi məhsulların fitosanitar normalara uyğun gəlmədiyini əsas gətirib.

Xeyli vaxtdır Ermənistanın Gümrü şəhərində fəaliyyət göstərən Rusiyanın 102-ci hərbi bazasının ölkədən çıxarılması tələbinin yenidən aktuallaşması, "Ruslar getsin!" çağırışının irəli sürüldüyü aksiyaların kütləviləşməsi qərbyönümlü və Moskva tərəfdarları arasında qarşıdurma yaradıb. Rusiya ilə bu hərbi bazanın 2044-cü ilədək Ermənistanda qalması ilə bağlı müqavilə bağlanmasına baxmayaraq "Respublika Naminə" Partiyasının təşkil etdiyi aksiya iştirakçıları Rusiya hərbi bazasının Ermənistan ərazisindən çıxarılması tələblərində israrlıdırlar. Regionda vəziyyətin Rusiyanın əleyhinə inkişaf etdiyi indiki şəraitdə yaranan bu vəziyyəti şərh edən erməni politoloqlar da 102-ci hərbi bazanın varlığını ölkənin təhlükəsizliyinə təhdid adlandırırlar. Bu bazanın Ermənistanda varlığı ölkənin təhlükəsizliyi üçün təminat deyil, əksinə, risk və təhlükə mənbəyi kimi dəyərləndirilir. Son aksiyalar da göstərir ki, Ermənistanda anti-Rusiya ovqatı güclənir. Erməni ictimaiyyəti Gümrüdə başqa dövlətin hərbi bazasının olmasını arzulamır. Rusiya isə Cənubi Qafqazda son dayanacağı olan bu ölkəni tərk etmək niyyətində deyil.

Son dövrlərdə Cənubi Qafqazda dəyişən situasiyalar, Nikol Paşinyanın Ankaraya səfərindən sonra baş nazirin keçirilən brifinqdə Türkiyə ilə quru sərhədlərin açılacağına əminliyini ifadə etməsi də bu bazanın fəaliyyətini əhəmiyyətsizləşdirir. Çünki bölgə dövlətləri arasında biri-birinə qarşı təhlükə yoxdur. Türkiyə və Azərbaycan Ermənistanla sülh şəraitində yaşamağın bütünlükdə bölgə üçün əhəmiyyəti dəfələrlə vurğulanıb. Yəni, real təhlükə üçün heç bir əsas yoxdur.

Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında keçirilən Əbu-Dabi, Vaşinqton görüşlərindən sonra bölgədə sabitliyin yaranması, Zəngəzur dəhlizinin açılması ilə bağlı razılığın əldə olunması yekun sülh sənədinin imzalanmasını daha da yaxınlaşdırır.

Bu vəziyyət cəmiyyətdə antirus, antiqərb dairələr arasında da vəziyyəti gərginləşdirir. Qərbə inteqrasiyaya üstünlük verənlərlə Rusiyanı hələ də müttəfiq hesab edənlər arasında yaranan ziddiyyət təbii ki, ölkənin siyasi ab-havasını daha da tündləşdirir.

Bölgədə yaranan ağır vəziyyətin Ermənistan xalqının istəyinə, rifahı naminə dəyişməsi üçün düzgün siyasət aparan Paşinyan niyyətində israrlıdır. Ölkədə korrupsiya əleyhinə mübarizəni gücləndirən baş nazirin Vaşinqton görüşündən sonra Azərbaycanla münasibətlərin yaxşılaşması istiqamətində apardığı siyasət, verdiyi açıqlamalarda ölkə konstitusiyasında qeyri-müəyyənliyin olduğunu etiraf etməsi sülh sazişinin imzalanmasına ümidi artırır. Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ arasında imzalanan Birgə Bəyannamə, Ağ Evdə paraflanan sülh sazişi, Birləşmiş Ştatlarla Azərbaycan arasında Strateji Tərəfdaşlığa dair Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması ilə bağlı sənədin qəbulu bölgəyə sülh vəd edir.

Bu günlərdə Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində Vaşinqtonda Ermənistanla Azərbaycan arasında imzalanmış həmin tarixi razılaşma ilə bağlı fikirlərini açıqlayan Prezident İlham Əliyev Azərbaycanın sülh sazişinin imzalanmasının təşəbbüskarı olduğunu diqqətə çatdırmışdır: "Əslində, avqustun 8-də Vaşinqtonda paraflanmış sənəd Ermənistan-Azərbaycan münasibətlərinin dövlətlərarası çərçivədə necə qurulmalı olduğu barədə Azərbaycanın baxışına əsaslanır. Qeyd etdiyim kimi, danışıqlar bir neçə il davam etdi və nəhayət Vaşinqtonda Prezident Trampın və onun komandasının böyük dəstəyi ilə başa çatdı. Mən hesab edirəm ki, bu, münaqişənin, müharibənin sonudur. Formal olaraq sülh sazişinin imzalanmamasının bir xüsusi səbəbi var - Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü hələ də şübhə altına alan müddəa mövcuddur. Bildiyimiz qədər, onlar həmin müddəaya dəyişiklik edəcəklər. Elə ki, bu dəyişiklik olundu, yəni, Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar onların konstitusiyasından çıxarıldı, formal olaraq sülh sazişi də imzalanacaq."

Prezident İlham Əliyev müsahibəsində onu da xatırladıb ki, bu sənədin paraflanması 30 ildən artıq davam edən münaqişənin, 44 günlük İkinci Qarabağ müharibəsinin Azərbaycanın Zəfəri ilə başa çatdığını göstərir. Bu reallıq Cənubi Qafqaz regionu, daha geniş mənada Mərkəzi Asiya və Yaxın Şərq ölkələri arasında əməkdaşlıq üçün tamamilə yeni imkanlar açır. Dövlət başçımız gələn il bu ölkədə keçiriləcək parlament seçkilərinə hazırlıq mərhələsi kimi yeni konstitusiya layihəsi üzərində iş aparıldığını söyləməklə bildirib ki, prosesə güclü xarici müdaxilə olarsa, bu, razılaşmaları poza bilər. "Amma bu, Ermənistanın özü üçün çox zərərli olar, çünki Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından, Ermənistan lideri tərəfindən imzalanıb. Əgər orada hər hansı dəyişiklik baş verərsə və imzalanmış sənəddən geri addım atılarsa, bu, Ermənistan ilə ABŞ arasındakı münasibətləri ciddi şəkildə pisləşdirər. Bu, yalnız ABŞ-a aid deyil, beynəlxalq ictimaiyyət, Avropa İttifaqı, Türkiyə və ərəb ölkələrindəki dostlarımız da bu prosesi dəstəklədilər" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq ictimaiyyətin müsbət qarşıladığı razılaşmanı pozmaq bütün dünyaya qarşı çıxmaq deməkdir. Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir. Ermənistanın hər hansı gələcək hökuməti hakimiyyətə gəldiyi vaxtdan asılı olmayaraq, Vaşinqtonda imzalanan sənədi şübhə altına qoyarsa, Ermənistan ciddi çətinliklərlə üzləşəcək. Çünki regiondakı güc balansı hər baxımdan tamamilə Azərbaycanın xeyrinədir.

"Vaşinqtonda imzalanan sənədin əhəmiyyəti ondan ibarətdir ki, hər iki tərəf birbirinin ərazi bütövlüyünü tanıyır və gələcək təmaslarını beynəlxalq hüququn bu fundamental tezisi əsasında planlaşdıracaq. Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, Cənubi Qafqazda sabitliyin bərpası üçün başlıca amil olan sülh sazişinin imzalanmasına daha çox cəhd göstərən Azərbaycanın təşəbbüslərinin beynəlxalq səviyyədə dəstəklənməsi ölkəmizin qarşılıqlı əməkdaşlığa sadiqliyinin nümunəsidir.

***Xuraman İsmayılqızı***

# Milli-mənəvi bazamız üzərində inkişaf konsepsiyası haqqında bəzi mülahizələr

"Azərbaycan öz milli-mənəvi kökləri üzərində inkişaf etməlidir, nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq"- İlham Əliyev

***Son dövrlərdə cəmiyyətimizdə bəzi qüvvələr tərəfindən milli-mənəvi dəyərlərə qarşı hücumlar artıb. Bu hücumları təşkil edənlər əxlaqi kriteriyalara, mənəvi dəyərlərə qarşı təbliğat aparır, öz əxlaqını, vicdanını, namusunu- ailə dəyərlərini qoruyan insanlara geridəqalmış kimi baxırlar. Guya inkişafın mühərriki məhv milli mənəvi dəyərlərə tüpürmək imiş. Halbuki, bunun belə olmadığına dair çoxsaylı faktlar və nümunələr var. Çini və Yaponiyanı misal göstərmək kifayətdir. Beləliklə, sualı konkret qoyaq- Milli-mənəvi dəyərlər elmi-texniki inkişafa mane olurmu və inkişaf etmək üçün mütləq öz dəyərləimizi məhv edib qərb dəyərlərinimi qəbul etməliyik? Ritorik sualdır və cavab aydındır-ağlı başında olan adam üçün bu cəfəngiyyatdır.***



## Milli-mənəvi dəyərlər elmi-texniki inkişafa mane olurmu?

Avropa, Qərb dəyərləri adı altında bəzi beynəlxalq və yerli mərkəzlər tərəfindən bizə sürətlə və ardıcıl sırınan dəyərlərin mənəvi tərəfləri faciədir. Bu mənəvi deqradasiyanın Qərb cəmiyyətlərini hansı sosial-mənəvi nəticələrə gətirib çıxardığı haqda çoxsaylı faktlar və elə Qərb tədqiqatçılarının bu mövzuda ciddi əsərləri var.






Qloballaşma prosesində birtərəfli inteqrasiya ciddi problemlərə yol aça bilər. Bəzi şəxslər bəzi Qərb ölkələrinin iqtisadi və texniki inkiafını əsas götürüb bizim də onların mənəvi dəyərlərini qəbul etməyimizə çağırırlar. Bunu çox vaxt maddi, texnoloji inkişafla bağlayıb deyirlər ki, görürsünüzmü, Qərb ölkələri mənəvi dəyərləri kənara qoyublar deyə necə inkişaf ediblər.

Lakin bir ağıllı çıxıb onlara Çini, Yaponiyanı nümunə göstərəndə boğazları quruyur. İndi necə izah etsinlər ki, çinlilərin, yaponların timsalında bir xalq öz dəyərlərini, mədəniyyətini, dinini, ənənələrini, əxlaqını qoruyaraq da dünyanın ən inkişaf etmiş xalqına çevrilə bilir. Tərslikdən də, Çin və Yaponiya Qərbdə yox, Şərqdə yerləşir. Deməli, elmi-texnoloji, sosial-iqtisadi inkişaf üşün heç də Qərbin mənəvi kriteriyalarını qəbul etmək vacib deyil. Beləliklə, Qərb dairələrindən ayrılan qrantlarla təşkil olunan "müasir" dəyərlər təbliğatının nə məqsədə xidmət etdiyi aydındır. Qısası, bu arqumentə bir quş.

## İnsan hüquqları, yoxsa anarxik əxlaqi deqradasiya?

İkinci arqument insan hüquqları adı altında cəmiyyətimizə sırınan dəyərlərdir. Məsələn, qadın hüquqları, uşaq hüquqları, cinsi azlıqların hüquqları və s. Mən başa düşmürəm, bizim cəmiyyətdə qadınlar, uşaqlar, xəstələr kimsə tərəfindən əzilirmi? Psixi xəstələr tərəfindən edilən tək-tük kriminal hərəkətləri nəzərə almasaq, xeyir!

Kişilərin həmişə qadınlara diqqətlə, qayğıyla, fədakarlıqla yanaşdığını görmüşük. Azərbaycan qadını həm evinin, ailəsinin xanımı olub, həm də cəmiyyətə xeyirli sosial ictimai fəaliyyət göstərib. Qadın azadlığı budur, indi kommersiya TV-lərində, filmlərdə, seriallarda təbliğ olunanlar deyil. Məncə, bir xanımın elmi ixtiralar etməsi üçün onun 1 qarışlıq mini-yubkada gəzməsi və ya müxtəlif kişilərlə qeyri-qanuni münasibətlərdə olması tələb olunmur.

Bizim ailə institutumuzda və cəmiyyətimizdə qadının, qızın öz layiqli yeri var. Amerikalı və avropalıya azərbaycanlı kişinin öz anası, xanımı, bacısı, qızı uğrunda düşünmədən canını qurban verməsi bəlkə qəribə gələr, amma bizdə bu, müzakirəsi belə mümkün olmayan avtomatik reaksiya hesab olunur.

Bizdə uşaqlar döyülüb öldürülürmü? Xeyr! Sadəcə, valideyn bəzən tərbiyəsi pozulmasın deyə uşağına qulaqburması verir. Əks halda, həmin uşağın axırı hippiyə, emoya, ən yaxşı halda cinayətkara və ya narkomana çevrilər. Uşağını qorumaq, onun tərbiyəsinin pozulduğunu gördükdə cəzalandırmaq valideynin borcu və haqqıdır.

Məgər dövlət cinayət törədən vətəndaşı cəzalandırmırmı? Məgər bəzi qayda və qanunlar, tələblər havayı yerəmi qoyulub? Məgər valideynin öz uşağını danlamağa, qulaqburması verməyə haqqı çatmamalıdır? Bəlkə 15 yaşlı qızcığaz gecə saat 3-də pritondan atasına zəng eləyib desin ki, mənim bəzi vacib işlərim var, özüm kefim istəyəndə evə gələcəm? Xeyr, bağışlayacaqsınız, bunlar hüquq deyil, anarxiyadır, mənəvi deqradasiyanın kulminasiyasıdır. Kəsəsi, bu arqumentə də bir quş.

## Cinsi azlıqların üstün hüquqları olmalıdır?

İndi isə keçək yad dəyərlərin təbliğatçılarının ən yaralı yerlərindən birinə- cinsi azlıqların hüquqları məsələsinə. Bizim cəmiyyətdə cinsi azlıq nümayəndəsi şallaqlanırmı, ya da ictimai yerlərdən qovulurmu? Xeyr! Sadəcə, onlar cəmiyyətə nümunə göstərilib başa çıxarılmır. Onlara vəziyyətdən asılı olaraq ya xəstə kimi, ya da əxlaqi cəhətdən pozğun adam kimi baxırlar. Ən əsası, onlar digər vətəndaşların istifadə etdiyi bütün sosial və sair hüquqlardan yararlanırlar. Bəlkə onlara, eyni işə görə normal adamlardan az maaş verilir, bəlkə onlar əmlak, sosial təminat, əmək hüququ məsələlərində ayrı-seçkiliyə məruz qalırlar? Xeyr.

Yaxşı, bəs onda nə deyib bizim ailə institutumuzu dağıtmaq, cəmiyyət əxlaqını dəyişmək istəyirlər? Çətin sualdır. Bunu bu işlə ciddi məşğul olan şəbəkənin nümayəndələrindən soruşanda boğazları quruyur.

Dəyərlər dəyişə bilər. Amma bu dəyişmə mütləq mənfi istiqamətdəmi olmalıdır? Müsbətə doğru dəyişmək olmazmı? Məgər mənəvi-əxlaqi dəyərlər maddi nemətlərdən istifadə, iqtisadi inkişaf, sosial ədalət, elmi-texniki tərəqqi üçün problem yaradır? Yuxarıdakı nümunələrdə gördüyümüz kimi, yaratmır!

Deməli, inkişaf üçün milli-mənəvi dəyərləri itirməyə, onu yad dəyərlərlə əvəzləməyə ehtiyac yoxdur. Hər mədəniyyətin özünün psixoloji-ruhi-mənəvi dəyərlər sistemi var. Elmi-texnoloji, sosial-iqtisadi inkişafın bura heç bir dəxli yoxdur. Olsaydı, konservativ Yaponiya və ideoloji Çin ilə rasional Amerika və novator Avropa arasında bu sahələrdə fərq olardı. Bəs onda nə baş verir? Əslində, nə baş verdiyi, necə baş verdiyi yox (bunlar məlumdur), niyə baş verdiyi müzakirə obyektidir.

Mənə şəxsən aydın deyil, inkişaf etmək üçün mənəvi dəyərləri yad mədəniyyətlərdənmi qəbul etməliyik, özümüzünkü yaramırmı? Yaramırsa, niyə misal üçün Sovet dövründə, həm dəyərlər qorunurdu, həm də ictimai, sosial, mədəni, elmi, texnoloji inkişaf gedirdi? Elə indi də, milli-mənəvi dəylərlərimiz elmi-texniki inkişafımıza heç bir problem yaratmır.

## Əxlaqsızlığın təbliğinə görə sərt cəzalanma olmalıdır

Ümumiyyətlə, ölkədə qadın alverinin, narkotikanın, digər zərərli və təhlükəli halların təbliği, hətta internetdə təhqir qadağandırsa, onda fahişəliyin təbliği də qanunla qadağan olunmalıdır. Mediada, sosial şəbəkələrdə, ictimai tədbirlərdə mənəvi dəyərlərə təcavüzə qarşı daha ciddi tədbir görülməlidir. Bu, bir milli təhlükəsizliik məsələsidir.

Dövlətimiz milli-mənəvi ideoloji baza üzərində inkişaf siyasəti yürüdür. Bu siyasət milli-mənəvi dəyərləri qoruyaraq dünyaya inteqrasiya etməyi özündə ehtiva edir. Yazımı Prezident İlham Əliyevin bu məsələlərə həsr olunmuş çıxışından bir fraza ilə yekun vurmaq istərdim:

"Biz milli-mədəni dəyərlərimizi gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır. Çünki bu gün qloballaşma prosesi gedir. Düzdür, son vaxtlar bu "qloballaşma" sözü daha az çəkilir. Ancaq proses gedir. Sadəcə olaraq, bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər. Budur bunun təməlində dayanan əsas məqsəd.

Əlbəttə ki, indi qloballaşma deyəndə bəziləri bunu inteqrasiya, dünyanın yeni inkişaf modeli kimi qələmə verirlər. Ola bilər, müsbət məqamlar da var, onları mən inkar etmək istəmirəm. Ancaq, eyni zamanda, açıq-aydın görünür, bu siyasətlə böyük dairəyə hakim olmaq, təsir imkanlarını genişləndirmək istəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun...

Bəzi hallarda belə sözlər işlədilir ki, biz inteqrasiya etməliyik, Avropaya inteqrasiya etməliyik. Mən artıq dəfələrlə demişəm, biz heç yerə inteqrasiya etməməliyik. Biz öz milli dəyərlərimiz üzərində möhkəm dövlət, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Xüsusilə, indiki ayrı-seçkilik, islamafobiya dövründə inteqrasiya etməyə heç bir ehtiyac yoxdur. Ona görə milli ruhda tərbiyə almaq hər bir gəncin borcudur. Bax, Azərbaycan belə inkişaf etməlidir... Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq!"

Hesab edirəm ki, əlavə şərhə ehtiyac yoxdur.

***Elçin Bayramlı***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***

# Paşinyanı gələnilki seçkilərdə nə gözləyir?

*Ermənistanda sülh kursu qalib gələcəkmi?...*

**"Vaşinqtonda imzalanmış bəyannamə sayəsində Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olması münasibətilə hamınızı təbrik etmək istərdim". Bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib. O, görülən işlərə görə kabinet üzvlərinə təşəkkür edib və qeyd edib ki, Vaşinqtona yola düşməzdən əvvəl hökumətin, Təhlükəsizlik Şurasının genişləndirilmiş tərkibinin, Ermənistan prezidentinin, deputatların və regionların rəhbərlərinin iştirakı ilə bəyannamənin mətninin müzakirələri və təhlili aparılıb.**

"Bunun nəticəsində biz bu addımı atmağın zəruri olduğu qənaətinə gəldik",- deyən baş nazir qarşıda hələ çox iş olduğunu vurğulayıb. Paşinyan həmçinin bəyan edib ki, vətəndaşlar gələn ilin yayında keçiriləcək seçkilərdə seçim etməli olacaqlar.

"Mən "sülh" və "müharibə" arasında demək istəmirəm, daha yumşaq deyəcəyəm - sülhlə sülhün yoxluğu arasında. Ona görə də mən müraciətimdə açıq şəkildə bildirdim ki, sülhə gündəlik qayğı lazımdır və bu, bizim hər birimizin öz yerində, o cümlədən vətəndaşların, o cümlədən öz siyasi mövqelərinə diqqət yetirməklə birlikdə həll etməli olduğumuz vəzifədir". Baş nazir əmin edib ki, hakimiyyət Azərbaycanla sülh sazişinin mümkün qədər tez imzalanması və ratifikasiyası üzərində gündəlik işləyir və çalışacaq.








"Mən yeddinci sinifdən Qarabağ hərəkatında iştirak etmişəm. 2025-ci ilin martında isə Milli Məclisin tribunasından çıxış edərək qeyd etdim ki, baş nazir kimi öz təcrübəmə və təhlillərimə əsaslanaraq belə qənaətə gəldim ki, biz Qarabağ hərəkatını davam etdirməməliyik", - o, jurnalistlərlə söhbətində deyib.

Onun sözlərinə görə, bu bəyanat Ermənistana bu prinsip əsasında rəhbərlik edəcəyini bəyan etdikdən sonra verilib.



"Ermənistan vətəndaşları bunun baş verməməli olduğuna inanırlarsa, mən özüm də onları inqilaba səsləyirəm. Hesab edirəm ki, mən tarixdə öz ölkəsinin vətəndaşlarını elan edilmiş strategiya ilə razılaşmadıqları təqdirdə inqilaba çağıran ilk və yeganə baş nazirəm. İkinci belə bir hadisədən xəbərim yoxdur. Amma fakt odur ki, bizim vətəndaşlarımız inqilab etməyiblər, çünki mənim kimi, onlar da sülh yolu ilə bu qərarın qəbul edilməsi praktikasındadır", - Paşinyan qeyd edib.

O əlavə edib ki, çoxları "Qarabağ hərəkatı"nı başqa cür qəbul edir, onu Ermənistanın suverenliyinə, dövlətçiliyinə və müstəqilliyinə xələl gətirə biləcək əlverişli rıçaq kimi görür. "Və biz etiraf etməliyik ki, bu rıçaqdan səmərəli istifadə edilib. İndi sülh erası gəlib çatıb və Ermənistan vətəndaşları bunu məmnunluqla qəbul ediblər. Bunun üçün kifayət qədər sübutlar var və bunu təkzib edə biləcək heç bir fakt yoxdur", - baş nazir yekunlaşdırıb.

Məşhur ekspertlər Paşinyanın açıqlamalarının mənasını Caliber.Az-a açıqlayıb. Şərhləri oxucularımıza təqdim edirik.

Ermənistan Politoloqlar Assosiasiyasının prezidenti, siyasi elmlər doktoru Hmayak Hovannisyan əmindir ki, baş nazirin sözləri onun səmimi mövqeyini, eləcə də "Vətəndaş Sazişi" tərəfinin mövqeyini əks etdirir.

"2026-cı ilin iyununda keçiriləcək parlament seçkiləri bu bəyanatların Ermənistan Respublikası vətəndaşlarının əksəriyyətinin rəyi ilə nə dərəcədə üst-üstə düşdüyünü göstərəcək. Seçicilər bu gün parlamentdə sabit çoxluğa malik olan, faktiki olaraq onlara sərbəst şəkildə baş nazir üçün faydalı olan qanun və qərarlar qəbul etməyə imkan verən Paşinyanın və onun partiyasının fəaliyyətinə qiymət verməli olacaqlar.

Ermənistanda parlament idarəetmə forması var və hazırkı rəhbərliyin kursunun real qiymətini məhz parlament seçkiləri verəcək. Reytinqinin aşağı düşməsinə baxmayaraq, Paşinyan hələ də digər namizədləri qabaqlayır. Burada əsas rolu Serj Sarkisyanın göstərişi ilə Respublika Partiyasının hakimiyyəti dövründə qəbul edilmiş və Paşinyan hakimiyyətə gəldikdən sonra düzəliş etmədiyi seçki qanunu oynayır. Məhz bu qanun ona hakimiyyəti saxlamağa imkan verir",- ekspert qeyd edib.

Ovannisyanın fikrincə, əvvəlki hakimiyyətin uğursuz idarəçiliyinə görə məsuliyyət yükündən qurtula bilməyən titul müxalifətinin zəifliyi indiki baş nazirin mövqeyini yalnız gücləndirir.



"Bu qanun hakim partiyaya səslərin təxminən 15%-ni alsa belə, sabit səs çoxluğu yaratmağa imkan verir. Ona görə də təsadüfi deyil ki, onun müəllifi Serj Sarkisyan bu gün bəyan edir ki, Nikol Paşinyandan yalnız küçə təzyiqi ilə qurtulmaq olar, demokratik seçkilər yolu ilə deyil. O, Paşinyana nə hədiyyə qoyub getdiyini çox gözəl bilir".

Vaşinqtonda paraflanan sülh sazişinə gəlincə, Hovannisyan onun effektivliyinə inandığını bildirib. "Xalqlarımız heç vaxt münaqişə etmək istəməyiblər. Müasir tarixdə ən populyar erməni siyasətçisi olan Karen Dəmirçyanın yaxın adamı kimi mən tam məsuliyyətlə qeyd edə bilərəm ki, münaqişənin ssenari müəllifləri Mixail Qorbaçov və Aleksandr Yakovlev olub. Onlar təcrübəli və müdrik liderləri hakimiyyətdən uzaqlaşdırıblar- Heydər Əliyev və Karen Dəmirçyanı. Bu gün gələcəyin yaxşılığı naminə biz düşmənçiliyə son qoymağa, sülhə yol açmağa borcluyuq", - ekspert vurğulayıb.

Erməni analitik və publisist İşxan Verdyan qeyd edib ki, əgər siz özünüzü informasiya səs-küyündən yayındırıb İrəvan həyatına nəzər salsanız, görərsiniz: insanlar normal həyat sürürlər, baş nazirə qarşı kütləvi etirazlar yoxdur.

"Əleyhinə olanlar hər dəfə hamıya çoxdan məlum olan eyni kiçik tərəfdarlar qrupunu toplayırlar. Üstəlik, bu kütlənin onurğasını əsasən qarabağlılar təşkil edir. Ona görə də cəmiyyətin əksəriyyəti Nikol Paşinyandan razıdır və onun təşəbbüslərinə mane olmayacaq. Bu da baş nazirə həm xarici, həm də daxili siyasətdə ciddi nəticələr əldə etmək üçün əlverişli şərait yaradır.

Vaşinqton razılaşmalarından sonra Rusiyanın Ermənistanda təsiri zəifləyib və bununla yanaşı, revanşist müxalifətin resursları da azalıb. O, "şimal mühafizəçisi"nin dəstəyi olmadan reallıqla üzləşməli olacaq. Bu şəraitdə dinc dialoq prosesi daha sürətlə gedə bilər",- o hesab edir.

Verdyan vurğulayıb ki, əsas problem "Qarabağ klanı" və ona bağlı olan daşnaklardır.

"Onlar Paşinyanın sülh təşəbbüslərini pozmağa yönəlmiş zəhərli ritorikaları yaymaqda davam edirlər. Onların məqsədi sadədir- Azərbaycanı gözdən salmaq və yeni münaqişəyə yol açmaq.

Paşinyan özü də bunu tam dərk etmir. O, gənclik illərindən Qarabağ hərəkatında iştirak edib və onun dünyagörüşünün qalıq təhrifləri bu günə kimi qalmaqdadır. Bu, məsələn, Qarabağ ermənilərinin Qarabağa qaytarılmasının qeyri-mümkünlüyü və ya ermənilərin hətta cinayətlərə görə Azərbaycan həbsxanasında ola biləcəyinin tanınması ilə bağlı sərt mövqedə özünü göstərir. Bu, şübhəsiz ki, qərəzdir", - ekspert qeyd edib.

Onun sözlərinə görə, Paşinyan "sülh erası"nın başlanğıcından danışır, lakin suallar qalır: o, praktikada bunun nə demək olduğunu başa düşürmü? O, ermənilərin düşmən saydıqları insanlarla ünsiyyətə girməyə hazırdırmı? Onun öz münasibəti prosesi nə dərəcədə ləngidir?

"Sülh müqaviləsi sabah və ya bir neçə ildən sonra imzalana bilər- münaqişənin simvolik sona çatması kimi. Amma sənədin özü problemi həll etmir. Daha önəmlisi cəmiyyətin bu müqavilənin nəyi nəzərdə tutduğunu və hansı reallığı bərqərar etdiyini anlamaq istəyidir. Sülh prosesinin uğuru sazişin mətnindən deyil, onun həyata keçirildiyi andakı cəmiyyətin daxili vəziyyətindən asılı olacaq", - Verdyan bildirib.

***Tərcümə - Elçin Bayramlı***

# Ağ qan qırmızı qanı niyə "yeyir"?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı "istiqaməti çərçivəsində hazırlanıb*







***Qan xərçəngi kimi tanıdığımız leykemiya daha çox uşaqlıq dövrü xərçəngidir. Leykemiya sümük iliyinin istehsal etdiyi hüceyrələr olan limfoid və miyeloid hüceyrələrin anormal həddə çoxalması nəticəsində yaranır. El arasında bu xəstəlik "ağ qanın qırmızı qanı yeməsi" kimi tanınır.***

Leykemiya başlanğıc və klinik gedişatına görə kəskin və xroniki leykoz olaraq iki yerə bölünür. Kəskin leykemiyalar sürətlə inkişaf edir və vaxtında müalicə olunmazsa, xəstələr bir neçə həftəyə ölə bilərlər. Xroniki leykemiyalar isə yavaş-yavaş irəliləyir. Kəskin leykozlar bütün leykemiya xəstələrinin təxminən 95%-ni təşkil edir.

Leykemiya yarandıqları hüceyrə tipinə görə "limfositik" və "miyeloid" leykoz olmaqla iki qrupa bölünür. "Lenfositik leykoz" "lenfosit" adlanan ağ qan hüceyrələrini yaradan kök hüceyrələrin nəzarətsiz çoxalması ilə xarakterizə olunur. "Miyeloid leykoz" sümük iliyində leykositlər (neytrofillər, monositlər, eozinofillər, bazofillər), eritrositlər və trombositlər əmələ gətirən kök hüceyrələrin xərçəngidir. Lenfositlərin sürətlə çoxalması ilə baş verən leykoz növü "kəskin limfoblastik leykemiya" adlanır.

Uşaq yaşlarında xərçəng xəstəliyinə tutulanların 35%-i leykoz xəstələridir. Leykoz xəstələrində formasından asılı olaraq, qanyaradıcı üzvlər, ilk növbədə, sümük iliyi, qaraciyər, dalaq, limfatik düyünlər və başqa üzvlərdəki letikulo-endoteli toxuması zədələnir. Xəstəlik zamanı qırmızı qanın törənməsi də pozulur, ona görə leykozun təxminən bütün formalarında bu və ya başqa dərəcədə anemiyaya rast gəlmək olar. Həmçinin qandakı eritrositlərin orqanizmdə yaranması zamanı və trombositlərdə zəifləmə nəticəsində qanı qatılaşdıran hüceyrələrdə azalma müşahidə olunur.

Xəstəliyin kəskin dövründə qırmızı qan kürəciklərinin miqdarında azalma o dərəcəyə çatır ki, qanda ağarma baş verir. Qanda bu və ya başqa ağ qan elementlərinin üstünlüyündən asılı olaraq leykozlar limfoleykoza (limfatik elementlər), mieloleykoza (sümük iliyi elementləri) və retikulendotelioza (qanda ağ qan kürəciklərinin çoxluğu) ayrılır. Limfeleykozda çox vaxt bədxassəli qanazlığının əlamətləri görünür. Ağ qan hüceyrələrinin həddən artıq çoxalması, xüsusən də yetişməmiş ağ qan hüceyrələrinin üstünlüyü ilə müşahidə olunan leykozlar leykemiya -ağqanlılıq adlanır. Bu anormallıq zamanı 1 mm qanda 100-400 min ağ qan kürəciyi ola bilər. Leykozda ağ qan elementlərində dəyişikliklər baş verdiyi üçün qanın tərkibi sabit qalmır.



Leykozun səbəbi hələ müəyyən edilməyib. Ancaq bəzi xəstələrin keçmiş kimyəvi terapiya və ya radioterapiya və kimyəvi dərman istifadəsi səbəbindən bu xəstəlikləri inkişaf etdirdiyi düşünülür. Bundan əlavə, Daun Sindromlu insanlarda bu xəstəliyin daha çox yayılması, genetik xəstəlikləri olan insanlarda leykoza bir meyl olduğunu göstərir. Siqaret çəkmə, infeksiyalar, qeyri-sağlam qidalanma, kimyəvi maddələrə məruz qalma və spirt istifadəsi kimi faktorlar böyüklərdə qan xərçənginə səbəb olsa da, uşaqlarda xəstəliyin ətraf mühit faktorlarından çox genetik problemlərlə bağlı inkişaf ehtimalı daha yüksəkdir.

Leykemiya simptomları uşaqlar və böyüklər arasında fərqli ola bilər. Uşaqlarda leykozun simptomları bədəndə səbəbi bilinməyən qançırlar, zədə zamanı zərbənin təsiri ilə yaranan qançırlar, anemiya, qaraciyərin və ya dalağın böyüməsi, qanda qırmızı qan hüceyrəsi və hemoqlobin səviyyəsinin aşağı olması, ayaqlarda səbəbsiz ağrı olur.

Böyük insanlarda qəfil başlayan yüksək hərarət, zəiflik, səbəbsiz çəki itkisi, həddindən artıq yorğunluq, sağalmayan infeksiyalar, şişmiş diş ətləri, bədəndə qançırlar, iştahsızlıq, limfa düyünlərində heç bir ağrıya səbəb olmayan şişkinliklər, burun qanaxmaları, dərinin altında qırmızı ləkələr, öskürək, nəfəs darlığı, tərləmə, genişlənmiş qaraciyər və dalaq, sinə ağrısı, sümüklərdə və oynaqlarda ağrı leykoz əlaməti ola bilər.

Leykoz xəstəliyinin simptomları leykemiyanın növündən asılı olaraq dəyişir. Qan xərçəngi diaqnozu üçün fiziki müayinə tələb olunur. Həkimə müraciət edən xəstələrdə adətən zəiflik, yorğunluq, dəri rənginin dəyişməsi, göyərmə və limfa düyünlərinin böyüməsi müşahidə olunur. Həkimin göstərişi ilə tam qan analizi və periferik qan yaxması aparılır. Mikroskop altında araşdırılan qan nümunələrində anormal qan hüceyrələri aşkar edilərsə, leykoz diaqnozu qoyula bilər. Diaqnozu təsdiqləmək üçün sümük iliyi nümunəsi patoloji, sitometriya və genetik laboratoriyalarda araşdırılmalıdır.

Diaqnoz qoyulmuş xəstələr risk qrupundan asılı olaraq müxtəlif müalicə üsulları ilə nəzarətə götürülür. Leykoz müalicəsinin məqsədi xəstəliyin inkişafını dayandırmaq və sağalmaya nail olmaq, bərpa müddətini uzatmaq, mərkəzi sinir sistemini metastazdan qorumaq və sağlamlıq əldə ediləndə onun saxlanmasını təmin etməkdir.

Leykoz üçün əsas müalicə üsulu dərman müalicəsidir. Ağızdan və venadaxili olaraq tətbiq edilən kimyaterapiya müalicənin birinci mərhələsini təşkil edir. Leykemiya müalicəsi zamanı kimyaterapiya ilə yanaşı, qan və qan hüceyrələrinin dəyişdirilməsi, həmçinin qoruyucu və müalicəvi mikrob əleyhinə dərmanlar da tətbiq edilir. Bütün bu müalicəvi dərmanlarla yanaşı, xəstənin psixoloji vəziyyətinin pisləşməsinin qarşısını alan müalicə üsulları da leykoz müalicəsinin tərkib hissəsidir.

Yüksək risk qruplarında kimyaterapiyadan sonra kök hüceyrə transplantasiyası - ilik nəqli tələb edə bilər. Sümük iliyi transplantasiyası üçün lazım olan kök hüceyrələr xəstənin özündən və ya uyğun donordan əldə edilə bilər. Kök hüceyrələr yaxın qohumdan (məsələn, ana, ata, həyat yoldaşı, uşaq və ya qardaş) toplanırsa, transplantasiyadan əvvəl kök hüceyrələrdən uyğun olmayan toxumalar çıxarılır. Uşaqlarda leykoz müalicəsində müsbət nəticələr təxminən 90% təşkil edir, lakin yaşlı xəstələr üçün bu nisbət risk qrupundan asılı olaraq, 50% -80% arasındadır.

***Lalə Mehralı***

SON SƏHİFƏ

# SƏS

4 sentyabr 2025-ci il

## ““Formula 1” yarışlarının ölkəmizdə keçirilməsi təkcə idman hadisəsi deyil”




### *Üç qat dünya çempionundan açıqlama*



””Formula 1” və bunun kimi digər mötəbər beynəlxalq yarışların Azərbaycanda keçirilməsi hər birimizi sevindirir və qürurlandırır. Bu kimi tədbirlər bir daha sübut edir ki, ölkəmizdə idmana olan sevgi, hörmət və qayğı yüksək səviyyədədir”. Bu sözləri SİA-ya açıqlamasında sərbəst güləş üzrə 3 qat dünya çempionu Hacı Əliyev deyib. Onun sözlərinə görə, dövlətimizin idmanın inkişafına göstərdiyi diqqət və dəstək nəticəsində Azərbaycan bu gün dünya idman xəritəsində önəmli yerlərdən birini tutur:

””Formula 1” kimi nəhəng və texniki baxımdan mürəkkəb yarışın Bakıda keçirilməsi təkcə idman baxımından deyil, həm də iqtisadi, turizm və mədəni sahələrdə böyük əhəmiyyət daşıyır. Yarış üçün ölkəmizə gələn iştirakçılar, komanda üzvləri, jurnalistlər və turistlər Azərbaycanla daha yaxından tanış olurlar. Onlar şəhərimizin tarixi memarlığını, müasir infrastrukturunu, zəngin mədəniyyətini və qonaqpərvər xalqımızı görüb heyran qalırlar. Bu isə Azərbaycanın beynəlxalq imicinə müsbət təsir göstərir, ölkəmizin turizm potensialını artırır və dünyada tanınmasına töhfə verir”.

Hacı Əliyev fikirlərinə davam edərək həmçinin qeyd edib ki, təkcə yarışların keçirilməsi ilə deyil, təşkilatçılıq səviyyəsi ilə də ölkəmiz öz gücünü və bacarığını bir daha sübut edir: ”Biz bu gün elə bir mərhələdəyik ki, dünya səviyyəli tədbirlərə yüksək səviyyədə ev sahibliyi edirik. Beləliklə, Formula 1 kimi beynəlxalq yarışların Azərbaycanda keçirilməsi tək bir idman hadisəsi deyil - bu, ölkəmizin inkişafını, qlobal arenada öz yerini möhkəmləndirdiyini və gələcəyə doğru inamla irəlilədiyini göstərən mühüm bir göstəricidir”.

***Arzu Qurbanlı***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## 6 milyondan çox uşaq məktəbdən kənarda qalacaq - XƏBƏRDARLIQ



BMT-nin Uşaq Fondu (UNICEF) xəbərdarlıq edib ki, qlobal təhsilin maliyyələşdirilməsi kəskin azalmalarla üzləşir və bu, 2026-cı ilə qədər əlavə 6 milyon uşağı məktəbdən kənarda qoya bilər. BMT-nin rəsmi açıqlamasında deyilir ki, Təhsil üçün Rəsmi İnkişaf Yardımının (ODA) 3,2 milyard dollar aşağı düşəcəyi proqnozlaşdırılır ki, bu da 2023-cü ilə nisbətən 24 faiz azalma deməkdir və ixtisarların təxminən 80 faizi yalnız üç donor hökumətin payına düşür.

Belə bir azalma, bütün dünyada məktəbə getməyən uşaqların sayını 272 milyondan 278 milyona çatdıracaq. UNICEF bildirib ki, bu göstərici Almaniya və İtaliyada hər bir ibtidai məktəbi bağlamağa bərabərdir.

## Mövsüm dəyişikliyində adaptasiya çətinlikləri



“Hər bir dəyişiklik insan həyatında müəyyən adaptasiya mərhələsini tələb edir. Dəyişikliklər qarşısında ilk olaraq ”yeni şəraitə necə uyğunlaşmalıyam?” sualı ortaya çıxır. Bu, istər yeni işə başlamaq, istərsə də fərqli sosial mühitə daxil olmaq zamanı özünü göstərir. İnsan fərqli situasiyalarda, o cümlədən uşaqla ünsiyyət zamanı belə qarşı tərəfin ehtiyaclarına uyğun davranmağa çalışaraq adaptasiya prosesindən keçir”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Aytən Ələkbərova sözlərinə belə davam edib: ”Adaptasiya çətinliklərinin mahiyyəti ondan ibarətdir ki, insan yeni şəraitə keçidi bəzən ”yeni həyata başlamaq” kimi qəbul edir və üzərinə ağır psixoloji yük düşür. Xüsusilə digər mövsümlərdə - məsələn, yay fəslində mövsümi depressiyaya meyillilik, xroniki yorğunluq və ya narahatlıq pozuntuları aktivləşirsə, bu hal gələcək dəyişikliklərə uyğunlaşmanı daha da çətinləşdirir. Belə insanlar yeni ilin və ya yeni işin gətirəcəyi məsuliyyəti əvvəlcədən ağır yük kimi hiss edir və nəticədə depressiv simptomlar - yorğunluq, ümidsizlik və neqativ düşüncələr üzə çıxır. Adaptasiyanın uğurlu olması üçün insanın daxili motivasiyası və müsbət emosional yanaşması mühüm rol oynayır. Yeni işə, yeni həyata və ya yeni mövsümə uyğunlaşmaq üçün insanın həm istəkləri, həm də məqsədləri aydın olmalıdır. Əgər insan göstərdiyi enerjini və sevgini bir neçə dəfə artıq geri ala bilirsə, bu zaman həyatının ən yaxşı günlərini yenidən yaşamaq və yeni uğurlar əldə etmək imkanı qazanır.

Psixoloji nəzəriyyələrə görə, insan əvvəlcə düşünür, daha sonra öz düşüncələrini, arzularını və məqsədlərini sistemləşdirir. Bu prosesin sonunda isə fərd öz taleyini müəyyənləşdirir. Deməli, insanın gələcək həyatının formalaşmasında onun düşüncə tərzi, əməli fəaliyyəti və məqsədyönlü planlaşdırması bir-birini tamamlayan əsas amillərdir. Nəticə olaraq, adaptasiya çətinliklərini aradan qaldırmaq üçün insanın ardıcıl şəkildə düşünməsi, çalışması və gələcəyi planlaması vacibdir. Çünki bu gün atılmayan addımlar sabahın uğurlarını təmin edə bilmir”.

***Ayşən Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**